www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 dekabr 2015-ci il Cümə axşamı № 281 (6309) Qiymətı 40 qəpik

**Xəbər**

## Manat ucuzlaşmaya doğru gedir - devalvasiya gün sayır...

yazısı səh.6-da

**Gündəm**

### Amerikalı həmsədr ölkəsini və səfiri pis vəziyyətdə qoyub



Ekspertlərə görə, Qarabağ separatçısı ilə görüşən Ceyms Uorlik Bakı-Vaşinqton münasibətlərinə xələl gətirən addım atıb; rəsmi Bakı notasına cavab gözləyir...

yazısı səh.13-də

### Nardaranda növbəti əməliyyatlar; narkotik bitkilər axtarılır

yazısı səh.4-də

### ““Günəşli”dəki qəzadan sonra neft sızması Xəzəri çirkləndirib”

yazısı səh.5-də

### Evsiz qalan AXCP-nin sabiq funksioneri prezidentdən kömək istəyir

yazısı səh.10-da

### Bada gedən “Kənd təsərrüfatı ili”...

yazısı səh.12-də

*Sərdar Cəlaloğlu:*

### “Şeytanın kitabları sərbəst satılır və heç kəsin də vecinə deyil”

yazısı səh.10-da

*Elçin Şıxlı:*

### “Allahdan istədim, düşmənlərimi çox eləməsin, bir də baxdım ki, dostlarım qalmayıb”

yazısı səh. 8 və 9-da

### “MTN işi”: “Füzuli rayonunda vəzifəliləri gizli dinləyiblər” iddiası

yazısı səh.7-də

### “Rövşən Lənkəranski”nin düşmənləri istəyinə çata bilmədi

yazısı səh.11-də

### Prokuror Rauf Mirqədirova 7 il iş istədi

yazısı səh.2-də

### İş adamının aldatdığı fəhlə: “Özümü yandıracam”

yazısı səh.11-də

### Sulu qar, qar yağacaq, duman olacaq

yazısı səh.14-də

## Ermənistandan ölkəmizə qarşı diplomatik həmlə

# AVROPA ŞURASINDAN AZƏRBAYCANA SÜRPRİZ ZƏRBƏ - ŞOK GƏLİŞMƏ

AŞ PA-da antierməni qətnamələrinin qəbulu ərəfəsində qurumun baş katibi Torbyörn Yaqland ölkəmizlə bağlı xüsusi araşdırma aparmağa göstəriş verib; Yeni islədək siyasi dustaqların azad edilməsi ikiqat önəmli...




yazısı səh.6-da

# İŞİD-i bitirmək planı və Azərbaycan

Bakı üçün kritik dönəm: İranın, yoxsa Türkiyənin yanında yer almalı; müsəlman ölkələrinin antiterror koalisiyası ölkəmizi mürəkkəb seçimlə üzləşdirib; “İslam dünyasında İran, xristian dünyasında isə Rusiya təklənib”

yazısı səh.5-də



### Vəkil Elton Quliyev vəfat etdi

yazısı səh.3-də



*Aslan İsmayılov:*

### “”Yeni Müsavat”a və Rauf Arifoğluna qarşı hücumları qətiyyətlə pisləyirəm”

yazısı səh.4-də



### “Akula Akif”in şəriki haqda şok bilgilər

yazısı səh.7-də

17 dekabr 2015

YENİ MÜSAVAT
N 281 (6309) 17 dekabr 2015



# Prezident Hüseyn Bağırova “Şöhrət” ordeni verdi

**Azərbaycan prezidenti İlham Əliyev Hüseyn Bağırovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, ekologiya və təbii sərvətlər naziri H. Bağırov Azərbaycan Respublikasında təbiətin qorunması və ekoloji mühitin yaxşılaşdırılması sahəsində xidmətlərinə görə təltif edilib.**

# Nazir müavinindən etiraf: “Azərbaycan təhsili lazımi səviyyədə deyil”



Firudin Qurbanov

**Təhsil Problemləri İnstitutunun təşkilatçılığı ilə “Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr” mövzusunda respublika elmi konfransı keçirilir.**

APA-nın məlumatına görə, tədbirdə çıxış edən institutun direktoru Qulu Novruzov bildirib ki, konfransın keçirilməsində əsas məqsəd Azərbaycan təhsilinin qarşısında duran strateji hədəflər baxımından pedaqoji elmlərin vəzifələrini müzakirə etməkdir: “Hesab edirəm ki, bu gün dünyada gedən proseslərin mahiyyətinə varıb pedaqogikada tamamilə fərqli yanaşmalar, yeni metodika tətbiq olunmalıdır”.

Q. Novruzov deyib ki, bugünkü tələbə 15 il əvvəlin tələbəsindən kəskin şəkildə fərqlənir: “Yeni dünən həyətdə oynayan uşaq, bu gün planşet arxasına keçir. Ona görə də bu gün müəllim şagirdə biliyin səmərəli tətbiq yollarını göstərməlidir”.

**Təhsil nazirinin müavini Firudin Qurbanov isə etiraf edib ki, bu gün Azərbaycan təhsili lazım olan səviyyədə deyil:** “Baxmayaraq ki, bu il universitetlərə qəbul olan abituriyentlərin nəticələri yaxşı olub, amma yenə də biz təhsilin keyfiyyətini lazımi səviyyəyə qaldıra bilməmişik. Eyni zamanda qeyd etməliyəm ki, son vaxtlar birinci siniflərə gələnlərin sayında azalma müşahidə olunsa da, bu il məktəbə qədəm qoyan şagirdlərin sayı 12 faiz artıb. Ali məktəblərə bu il qəbul olan abituriyentlər arasında 500 və bu göstəricidən çox bal toplayanların sayı keçən ilə nisbətən 37 faiz artıb. Bu göstərici bizi nikbin olmağa sövq edir”.

# Türkiyə Rusiyanın 27 gəmisini həbs edib

**Türkiyə Rusiyaya məxsus 27 gəmiyə həbs qoyub. APA-nın yerli mətbuata istinadən xəbərinə görə, Türkiyə Rusiyanın 8 Türkiyə gəmisinə həbs qoymasından sonra bu addımı atıb. Bildirilir ki, bu il noyabrın 24-dən sonra Rusiya Qara dənizdə Türkiyə bayrağı altında üzən 5 gəmini saxlayıb. Bu proses sonrakı günlərdə davam edib və ümumilikdə 8 türk gəmisinə həbs qoyulub.**

Türkiyə Rusiyanın geri addım atmasını gözləsə də, vəziyyət dəyişməyib. Bundan sonra Türkiyə Aralıq və Qara dənizdə üzən Rusiya gəmilərində araşdırma aparıb. Yoxlamalar nəticəsində nöqsanlar aşkarlanan 27 Rusiya gəmisinə həbs qoyulub.

## “Elm” tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Prokuror Rauf Mirqədirova 7 il iş istədi

## Rəfiqə İsayeva: “Oğlum azad olunsun”



**Dekabrın 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində “Ayna Zerkalo” qəzetinin əməkdaşı Rauf Mirqədirovun son məhkəmə proseslərindən biri keçirildi.**

Əlisultan Osmanovun sədrliyi ilə qapalı keçən proses barədə müdafiə tərəfinin vəkili Fuad Ağayev media nümayəndələrinə məlumat verdi. Vəkil dövlət ittihamçısının Mirqədirova cinayət məcəlləsində nəzərdə tutulmuş cəzanın ən yüngül formasını istədiyini bildirdi: “Raufa cinayət maddəsinin ən yüngül cəzasının verilməsini istədi. Buna uyğun olaraq, 7 il həbs cəzası istədi. 274-cü maddə üzrə sanksiyada nəzərdə tutulmuş cəza Raufa istinad edilən dövr üçün 10 ildən 15 ilə qədər və ya ömürlük idi. 62-ci maddə o deməkdir ki, həmin maddənin sanksiyasında nəzərdə tutulmuş cəzanın aşağı həddindən də aşağıdır. Proses dekabrın 23-də, saat 10:30-da məhkəmə çıxışları ilə davam edəcək. Müdafiə nitqim və çox güman ki, Raufun son sözü olacaq. İndidən tələsik bir söz deməyək. Bu gün yalnız prokurorun çıxışı olub. Əsas çıxışlar qarşıdadır. Sonda məhkəmənin hökmü olacaq”

**Bütün proseslər boyu məhkəmə binasının önünə gələn, saatlarla soyuq havada oğluna dəstək olan, sonda dövlət ittihamçısının çıxışını göz yaşları ilə qarşılayan R.Mirqədirovun anası Rəfiqə İsayeva bunları dedi:** “Cənab prezidentdən, xanımı Mehriban Əliyevadan, xalqımdan xahiş edirəm ki, oğlumun məsələsində bizə kömək olsunlar. Raufun obyektiv surətdə azad edilməsini xahiş edirəm. Məhkəmədən xahişim odur ki, oğluma bəraət versin. İşə, sadəcə, obyektiv baxılsın, bu bizə yetər. Gələcək proseslərdə artıq oğlum azad olunsun”.

**Mirqədirovun əməkdaşı olduğu “Ayna Zerkalo”nun baş redaktoru Elçin Şıxlı bildirdi ki, prokurorun daha çox iş istəyəcəyini gözləyirdi:** “Məsələnin hüquqi tərəfləri barədə bir söz deyə bilmərəm. Sözün doğrusu, düşünürdüm ki, dövlət ittihamçısı daha çox iş istəyəcək. Amma o, 7 il iş istəyib. Nəzərə alaq ki, Raufun maddəsi çox ağır idi. Əvvəlcədən nəsə demək çətindir. Prokuror 10-15 il yox, 7 il iş istəyibsə, hesab edirəm ki, Raufun şansları daha çox artıb. 7 ili müsbət adlandırmaq olarsa, müsbət çalarlı bir müddətdir. Allah Raufun qapısını açsın. Hakimlər öz qərarlarını verəcəklər. Bir həftə də gözləyək. Hakimlərə sözüm ola bilməz. Sadəcə olaraq, istəklərimizi söyləyə bilərik. Hakimlər vəzifələrini icra edirlər. Xahiş edirəm ki, ədalətli məhkəmə prosesi aparsınlar. Çünki məhkəmənin adı ədalət məhkəməsidir. Başqa bir söz demək istəmirəm”.

Qeyd edək ki, R.Mirqədirov ötən ilin aprel ayında Türkiyədə saxlanılıb. Jurnalist daha sonra Azərbaycana deportasiya olunub. Rauf Mirqədirov Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasında saxlanılır. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunur.

❑ Cavanşir ABBASLI



# Kəmaləddin Heydərov icra hakimiyyətlərini ittiham etdi

**Bəzi rayon və şəhər icra hakimiyyətləri təmir-tikinti işləri zamanı yanğına davam gətirməyən materiallardan istifadə ediblər.**

Bu barədə fövqəladə hallar naziri Kəmaləddin Heydərov Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 10 illik yubileyinə həsr olunmuş genişləndirilmiş kollegiya iclasında deyib.

Nazir qeyd edib ki, Bakının Binəqədi rayonunda yaşayış binasında baş vermiş yanğın zamanı yanğınsöndürənlər ölümlərini gözləri önünə alaraq çoxlu sayda insanları xilas etdilər: “Təəssüflər olsun ki, yanğında 15 nəfər həyatını itirdi. Təəssüflər olsun ki, nazirliyin müvafiq qurumlarının dəfələrlə rayon və şəhər icra hakimiyyətlərinin başçılarına xəbərdarlıq məktublarına, göstərişlər verməsinə baxmayaraq bəzi rayon və şəhər icra hakimiyyətləri binaların əsaslı təmirində yanğına davamlı olmayan materiallardan istifadə edib. Biz sonra da gördük ki, icra hakimiyyətləri abadlıq zamanı yanğına davamlı olmayan materiallardan istifadə ediblər. Bu, istintaqda da üzə çıxır” (“Trend”).

# Qarabağla bağlı beynəlxalq koalisiya yaradılır



**Azərbaycan, Türkiyə və Gürcüstandan olan bir qrup qeyri-hökumət təşkilatının təşəbbüsü ilə İşğala və Qondarma “Erməni soyqırımı” İddialarına qarşı Beynəlxalq Qarabağ Koalisiyanın (ad hələlik şərtidir, yekun variant təsisçilərin toplantısında müəyyən ediləcəkdir) yaradılması ilə bağlı qərar verilib. Bu barədə QAT-dan aldığımız məlumatda bildirilir ki, məsləhətləşmələr iki aydır davam edir.**

Dekabrın 17-sində isə koalisiyaya Azərbaycandan qoşulacaq QHT rəhbərlərinin toplantısı keçirilib. Koalisiyaya Azərbaycandan Akif Nağı, İsmayıl Ağayev, Akif Kərimov, Mustafa Əliyev, Sultan Əzimzadə, Tənzilə Rüstəmxanlı, Mehdi Mehdiyev, Araz Aslanlı, Nəsimi Qarabağlı, Vüqar Qədirov, Emin Həsənli, Anar Xəlilov, Əkrəm Bəydəmirli, Faiq İsmayılov, Radə Abbas, Mətanət Əsgərqızı, Azər Həsrət, Mehriban Abdullayeva, Tahirə Məmmədova, Əkbər Qoşalı, Vüqar Ziferoğlu, Füruzə Əsədullayeva, Roza Əliqızı, Üzeyir Cəfərov, İradə Polad, Almaz Zeynalova, İradə Rzazadə, Əziz Ələkbərli, Kərim Kərimli, Naibə Behbudova, Türkiyədən Göksəl Gülbəy, Gürsel Özdemir, Bilal Dündar, Mehmet Öztürk, Ərhan Hacıqasımoğlu, Mühsün Ağçay, Uslan Vəziroğlu, İrfan Ermiş, Gürcüstandan Əli Babayev, Elbrus Məmmədov, Sabir Mehdiyev və digərləri qoşulur. Ancaq tam siyahı hələ dəqiqləşdirilməyib. Koalisiyanın təsis toplantısının 2015-ci il dekabrın 29-da Bakı şəhərində keçirilməsi nəzərdə tutulur. Koalisiyanın yaradılmasında məqsəd Qarabağ həqiqətlərinin təbliği, qondarma “erməni soyqırımı” iddialarının ifşası, regiondakı münaqişələrin ədalətli həllinə ictimai dəstək verməkdən ibarətdir.

❑ Cavid TURAN

## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Mesavat” - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# İtkin düşən neftçilərin axtarışı üçün Xəzəryanı ölkələrdən icazə alınıb

**“Fövqəladə Hallar Nazirliyinin aviasiya parkında olan təyyarə və vertolyotlar ”Günəşli” yatağında baş verən qəzada itkin düşənlərin axtarışını davam etdirir".**

Bunu APA-ya açıqlamasında Fövqəladə Hallar Nazirliyinin (FHN) Aviasiya Dəstəsinin bort texniki mayor Etibar Nəzərov deyib.

E. Nəzərov bildirib ki, Aviasiya Dəstəsinin rəisinin göstərişinə əsasən, hər gün havanın işıqlı vaxtında 4 vertolyot və bir təyyarə itkin düşmüş neftçiləri axtarır.

“Axtarış geniş miqyasda davam etdirilir. Xəzəryanı ölkələrdən də axtarış üçün müvafiq icazə alınıb. Azərbaycan sərhədlərindən kənarda - Xəzərin Türkmənistan, İran, Rusiya və Qazaxıstana aid hissəsində də itkin düşənlərin axtarışı aparılır”, - deyə mayor qeyd edib.

# Bakıda 7 yaşlı uşaq yoxa çıxdı; istintaq onun öldürüldüyünü güman edir

**Bakıda 7 yaşlı uşaq itkin düşüb. Bakı Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, dekabrın 14-də Goranboy rayonu, Balakürd kəndində qeydiyyatda olmaqla Bakı şəhəri, Yasamal rayonunda kirayədə yaşayan Əsgərova Rahilə Kitay qızı Daxili İşlər Nazirliyinin "102" məlumat xidmətinə zəng vuraraq oğlu, 2008-ci il təvəllüdlü Əsgərov Ceyhun Mobil oğlunun həmin gün saat 14 radələrində internet salona getmək adı ilə evdən çıxıb bir daha geri qayıtmaması barədə məlumat verib.**

Aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində azyaşlının yerini müəyyən etmək mümkün olmayıb.

Ceyhun Əsgərovun olduğu yerin müəyyən edilməməsi, azyaşlı olması və digər xüsusatlarla onun qətlə yetirilməsinə şübhələr olduğundan dekabrın 16-da Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



# Vəkil Elton Quliyev vəfat etdi

## Tanınmış hüquqşünas Yasamal qəbiristanlığında torpağa tapşırıldı

**Dekabrın 16-da ölkəmizin tanınmış hüquqşünası, vəkil Elton Quliyev 60 yaşında uzun sürən ağır xəstəlikdən vəfat edib. Mərhumla vidalaşma mərasimi «Təzəpir» məscidində keçirilib. Elton Quliyevin çoxsaylı dostları, ölkənin tanınmış ictimai-siyasi xadimləri onun dəfn mərasimində iştirak ediblər.**







**Mərhum vəkilin oğlu Rasim Quliyev musavat.com-a bildirib ki, atası səhər saat 3-4 radələrində dünyasını dəyişib:** "Son zamanlar vəziyyəti daha da ağırlaşmışdı. Bu gün səhər saat 3-4 radələrində dünyasını dəyişdi".

Mərhumla vidalaşmaq üçün səhər saat 9-10 radələrində artıq müxtəlif ictimai şəxslər "Təzəpir" məscidinin qarşısına toplanmışdılar. Onlardan bəziləri ilə söhbət edərək, E.Quliyev haqqında xatirələrini aldıq.

**Keçmiş səfir Hikmət Hacızadə bildirdi ki, Elton Quliyevin vəfatı hamı üçün ağırdır:** "Elton müəllim dəyərli insan, gözəl vətəndaş, ömrünün böyük bir hissəsini xalqa həsr etmiş şəxs idi. Onun vəfatı hər birimiz üçün itkidir. Allahdan ona rəhmət diləyirəm".

**Sabiq müdafiə naziri Rəhim Qazıyev də mərhumla vidalaşmağa gələnlər sırasında idi. O, E.Quliyevlə bağlı aşağıdakıları söylədi:** "Bu gün ən ləyaqətli, qiymətli hüquqşünaslardan birini, gözəl insanı itirdik. Onun həm savadı, həm də insanlara münasibəti, hadisələrə obyektiv baxışı tamam fərqli idi. Şərə, böhtana salınmış insanları hüquqi cəhətdən çox savadlı şəkildə müdafiə edirdi. O şəxsən məni müdafiə edib. Elton Quliyev bütün işlərində hüquqa əsaslanıb, heç zaman haqqa göz yummayıb. Səhhətimdə problem olsa da, özümə borc bildim ki, bu gün onun vida mərasimində iştirak edim. Allah rəhmət eləsin".

Saat 14 radələrində insan seli "Təzəpir" məscidindən E.Quliyevin torpağa tapşırılacağı Yasamal məzarlığına yola düşdü. Mərhum vəkil burada, ailə məzarlığında torpağa tapşırıldı. Dəfn mərasiminə də müxtəlif ictimai şəxslər qatılmışdılar.

Mərhum vəkil torpağa tapşırıldıqdan sonra onun məzarı qarşısında çıxış edən İsa Qəmbər aşağıdakı fikirləri bildirdi: "Bu gün çox dəyərli bir şəxsi itirdik. Gələcəkdə xalqımız haqqında, xalqımızın 20-ci əsrin sonu, 21-ci əsrin əvvəllərindəki insanların həyatı barədə araşdırma aparanlar, bu ölkədə ən çətin şəraitdə Elton kimi ləyaqətli insanların olduğunu, yüksək peşəkarların fəaliyyət göstərdiyini yazacaqlar, biləcəklər. Mən hər şeydən əvvəl bu gün bir dostumu itirdim. Elton bəylə ən müxtəlif şəraitlərdə, vaxtlarda çox maraqlı söhbətlərimiz olub. Bu bizim hər birimiz üçün itkidir. Başqa deyiləsi söz yoxdur. Allah ruhunu şad etsin. Yaxınları da bilsinlər ki, Elton üçün təkcə onlar yox, bizim hamımız acı kədər yaşayırıq. Sadəcə, insanlarımız bu cür dəyərli vətəndaşların qiymətini bilməlidirlər. Allah rəhmət eləsin".

Sabiq daxili işlər naziri İsgəndər Həmidov isə bildirdi ki, müxtəlif insanlar dünyalarını dəyişdikdən sonra nə isə qoyub gedirlər. Elton Quliyev isə bir kişilik etalonu qoyub getdi.

Qeyd edək ki, mərhumun yas mərasimi «Təzəpir» məscidində təşkil olunub.

Allah rəhmət eləsin!

❑ **Əli RAİS**

# Tanınmışların Elton Quliyevlə bağlı xatirələri...

## Hüquq müdafiəçiləri onu hörmətlə xatırlayır

**Azərbaycan cəmiyyəti, ictimai sektor, media dünyası böyük bir itki yaşadı. Tanınmış vəkil Elton Quliyev uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdi. Media ilə hüquq dünyasını bir-birinə sıx tellərlə bağlayanlardan biri idi Elton bəy. Vəkillərin jurnalistlərdən qaçdığı, onlarla maksimum az ünsiyyət taktikası qurduğu illərdə stereotipləri sındırdı. Jurnalistlərin dostu oldu, qardaşı oldu, müdafiəçisi, səngər yoldaşı... Ona görə də bu gün "Elton bəy mətbuatın xəzinəsindən getdi" desək, nə pafoslu səslənər, nə də mübaliğə.**



**Rauf Arifoğlu:**
"O, Azərbaycan mətbuatının itkisidir..."



**Səbinə Əvəzqızı:**
"İndi arxamızdan doğrudan da güvənilən bir dağ getdi"



**Şahvələd Çobanoğlu:**
"Ölümə çox sadə baxırdı, sadəcə, təəssüflənirdi: "Sizə kömək edə bilmirəm""

Tanınmış media nümayəndələri, jurnalistlər Elton Quliyevdən danışdılar. Onu son mənzilə yola salan dəqiqələrdə sözləri, xatirələri ilə vida etdilər.

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu bildirdi ki, Elton Quliyev media camesi üçün əziz, doğma, etibarlı bir sima idi.** "Media cameəsinin başı sağ olsun" deyən baş yazarın fikrincə, media onun həm də yaxınları sırasında sayılırdı: "Dar günümüzün dayağı idi. Bizim etibar etdiyimiz, heç bir mənfəət güdmədən bizə qarşı olanlara bizimlə birgə mübarizə aparan qardaşımız idi. Allah rəhmət eləsin. "Yeni Müsavat" qəzetinin 30-dan yuxarı məhkəmə işinin yarısından çoxunda bizim vəkilimiz olub. Mən məhkəməyə düşəndə də mənə vəkillik edib. Xüsusən 2003-cü ilin oktyabr hadisələri zamanı 17 ay məhbəs həyatı keçirəndə Elton Quliyev rəhmətlik Səməd Pənahovla birlikdə mənim müdafiəmi həyata keçirib. Həftədə bir-iki dəfə görüşüb danışırdıq. Təəssüf ki, ancaq telefonla danışmaq imkanımız olurdu".

**R.Arifoğlu üzülməklə yanaşı, bildirdi ki, E.Quliyev təkcə ailəsinin, vəkillərinin yox, eyni zamanda Azərbaycan mətbuatının itkisidir:** "Təsadüfi deyil ki, Elton Quliyevin son işlərindən biri də mətbuatla bağlı olub - Xədicə İsmayılın vəkili olub. Bu da onun mətbuata, jurnalistlərə necə bağlı olduğunu göstərən faktordur. Rəhmətlik İsaxan Aşurov da eynən onun kimi hər zaman medianın yanında idi. Hər iki hüquqşünas mətbuatı çox sevirdi. Köşə yazılarımızı oxuyur, məlumatlar, mövzular verirdi. Onların xatirəsi təkcə bizim qəzetin səhifələrində yox, xatirələrimizdə də əbədi yaşayacaq".

**E.Quliyevlə daim əməkdaşlıq edən, eks "Yeni Müsavat"çı, hafta.az saytının redaktoru Səbinə Əvəzqızı isə onunla bağlı unudulmaz xatirələrini bizimlə bölüşdü. Həmkarımız bildirdi ki, E.Quliyevi 90-cı illərin ortalarından tanıyır:** "Gözəl bir üçlük olmuşduq - Elton Quliyev, İsaxan Aşurov və bir də mən. Bütün proseslərə, səs-küylü işlərə birgə gedirdik. Onlar qədər media əhlinə hörmət edən ikinci vəkil tanımıram. O qədər işin arasında oturub gözləyirdilər. Elton bəy müdafiə etdiyi şəxsin duyğularını yaşaya bilir, onunla bağlı bütün çətinlikləri ürəyinə salırdı və bir o qədər də işə professional yanaşırdı. Çox baməzə idi *(nəsə hələ rəhmətlik deməyə dilim gəlmir - S.Ə.)* 1998 və ya 99-cu il idi. Ədliyyə Nazirliyi barəmdə mülki qaydada şikayət vermişdi məhkəməyə. İsaxan Aşurov nümayəndəm, Elton Quliyev də vəkilim olaraq çıxırdı prosesə. Ədliyyə Nazirliyindən gələn nümayəndə Elton Quliyevin məhkəmədəki müdafiə çıxışına qulaq asıb ağzı açıq qalmışdı. Bu cür professional müdafiə ilə bağlı heç cür etiraz etmək olmurdu. Özü də Elton sərbəst şəkildə, hərdən əlini cibinə qoyaraq, var-gəl edə-edə elə bir səmimi çıxış edirdi ki, hərdən hakim çaşıb "doğru-dur-doğrudur" deyirdi. Sonra da tələsik özünü düzəldirdi. İndi məhkəmədə söz verildi qarşı tərəfə. Durub heç cür bu çıxışın qarşısında hüquqi bir etiraz tapa bilmədi və yeganə olaraq dedi ki, vəkil əlini cibinə qoyub danışırdı. Elton bəy çox ciddi sifət alaraq, rəsmi formada çıxış üçün icazə aldı və hakimə çönüb bunları dedi: "Çox hörmətli hakim, qarşı tərəf iradında hüquqi cəhətdən tam əsassızdır. Əgər mən əlimi onun cibinə qoyaraq danışsaydım, onun buna etiraz etməyə tam haqqı var idi. Çünki bu, şəxsi həyata müdaxilədir. Amma mən əlimi öz cibimə qoymuşam da..." İnanın ki, hakim özünü saxlaya bilmədi, gözü yaşarana kimi güldü".

**S.Əvəzqızı mərhum vəkillə bağlı daha bir xatirəsini də bölüşdü:** "Mənə qarşı pul tələbi səslənəndə durub dedim ki, "pulum - filan yoxdur, dövlətdən aldığım bir vauçerim var". Ədliyyə Nazirliyindən gələn necə atıldı ki, ölkənin ən bahalı vəkillərini tutub özünə, guya pulu yoxdur? E.Quliyevin cavabı da belə oldu: "Bu bizə pul verir? Səhər tezdən gedib maşınla gətiririk məhkəməyə, günorta fasiləsində deyir "işə-gedib qayıtsam gecikərəm birdən". Məcbur olub ona hələ nahar da alırıq. Hələ burdan çıxanda bizi zəlil edib aparacaq özü ilə işə..." Doğrudan media nümayəndələrinə, bir xanıma, ümumiyyətlə, müdafiə etdiyi yüzlərlə insana beləcə pulsuz, təmənnasız xidmət edirdi. Mənə həmişə Ağdam ləhcəsi ilə "bajı" deyə müraciət edirdi. Deyirdi "bajı, arada imkan verin gedib o pullu adamların da məhkəməsinə çıxaq ki, sizin də arxanızca qaça bilək də..." İndi arxamızdan doğrudan da güvənilən bir dağ getdi. Bunu hələ bir azdan daha çox anlayacağıq. Onu hamı sevirdi, ondan yalnız müsbət enerji almaq olardı. Ona əlvida demək həddən artıq acı gəldi mənə".

**Tanınmış jurnalist Şahvələd Çobanoğlu isə E.Quliyevlə bağlı emosional bir status paylaşıb:** "Xədicə zəng etmişdi. Heç nə danışmadıq. O ağladı, mən də özümü tox tutub susdum. Söylədim ki, Elton mənə demişdi sənə çatdırım, ağlamayasan. Amma bir az da hönkürtü ilə ağladı. Elton ən ağır zamanlarda Xədicənin müdafiəsindən çəkilmədi. Rəsmən yenə onun vəkili idi. Hey onun cəsarətindən danışırdı. Bu adam dar günün dayağı idi.

Prokurorluq məni istintaqa çəkəndə gündə 5-6 dəfə zəng edirdi. Prokurorluğu məhkəməyə vermişdim, məhkəmənin qabağına gəlib dedi: "Özünə vəkillik elə, məni əvəz et..." Onu əvəz etmək olardı? Xəstəlik dövründə də hey söhbətləşdik, çox cəsur adam idi. Ölümə çox sadə baxırdı. Sadəcə, təəssüflənirdi: "Sizə kömək edə bilmirəm".

Yayda Xədicənin məhkəməsi olan gün mənə zəng etdi ki, şəhərdə görüşək. Dilə tutdum ki, məhkəmənin önünə gəlsin, hamı burdadır. Əvvəl razı olmadı. Dedim, gəl bura, sənə ehtiyacımız var. Bundan sonra razı odu. Gəldi. İndi düşünürəm, yaxşı ki, gətirə bildim onu ora, çox adam üçün vida görüşü oldu".

❑ **Sevinc TELMANQIZI**

# Bir statusu fürsət bilənlərə cavab

## Baş redaktor Aslan İsmayılovla niyə görüşdü?

**Gəncənin yeni deputatı Naqif Həmzəyevin Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə haqqında açıqlaması "Yeni Müsavat" qəzetinin müxbirinin fəaliyyəti nəticəsində üzə çıxdı. Məhz "Yeni Müsavat"ın yaydığı material əsasında bu deputata və onun daşıdığı mövqeyə böyük bir etiraz kampaniyası baş qaldırdı. Millət vəkilləri bu məsələyə qoşuldular, hətta iqtidaryönlü deputatlar mərhum prezident Heydər Əliyevin Rəsulzadəyə münasibətini əsas gətirərək YAP-dan seçilən bu gənc deputatın tərbiyəsiz hərəkətinə etiraz etdilər. Parlamentdə də məsələ müzakirəyə çıxarıldı. Nəticə etibarilə Naqif Həmzəyev və bu mövqedə olanlar geri çəkildilər.**

Ən təqdirəlayiq hal budur ki, məhz "Yeni Müsavat" qəzetinin və onun müxbiri Xalidə Gərayevanın fədakar fəaliyyəti nəticəsində illərdir Gəncədə Məhəmməd Əmin Rəsulzadənin büstünün başına keçirilən torba çıxarıldı. Bundan əvvəl dəfələrlə media mənsubları bu barədə yazsalar da, şəkil paylaşsalar da, müzakirə olunsa da bu nəticəni əldə etmək mümkün olmurdu. Bu prosesə görə qəzetimiz minlərlə təqdirlər aldı. Lakin bir sıra sosial şəbəkə fəalları, o cümlədən bizim qərəzkarlarımız bu məsələni də "Yeni Müsavat"ın üzərinə hücum fürsəti kimi istifadə eləmək cəhdində bulundular.

Tanınmış hüquqşünas, dostumuz Aslan İsmayılovun qeyri-müəyyən formada yazılmış şərhini bəhanə eləyən kərimovçu media mənsubları və sosial şəbəkə istifadəçiləri bizi Naqif Həmzəyev və bu kimi antimilli ünsürlərlə bazarlığa getməkdə suçlamaq təşəbbüsü göstərdilər. Naqif Həmzəyevin geri çəkilməsinə, öz sözünü yeməsinə rəğmən "Yeni Müsavat"dan və Rauf Arifoğlundan tələb olunur ki, bu deputatın mandatı əlindən alınmalıdır. Bu tələb həyata keçirilmirsə, o zaman, deməli, R.Arifoğlu günahkardır. Hansı ki, ümumiyyətə, belə bir tələbin ünvanı hər hansı qəzet ola bilməz. Biz mandat verib, mandat almırıq. Hüquqi cəhətdən, hansısa deputatın tarixi şəxslərə özəl münasibəti də onun mandatının əlindən alınmasına səbəb ola bilməz. Təəssüf ki, hazırda Azərbaycan qanunvericiliyində "M.Ə. Rəsulzadəni təhqir etdiyinə görə cəza" maddəsi yoxdur.

**Hörmətli Aslan İsmayılov özünün facebookdakı səhifəsində mövzunun arxa plana keçməsindən narahat olaraq, sual qoyur və qeyri-müəyyən kateqoriyada belə yazır:** "Ziyafət Əsgərovdan fərqli olaraq düşünürəm ki, bu problem iki nəfər arasında çözülməməlidir və özlərini daim Məhəmməd Əmin Rəsulzadə davamçıları sayanlar da belə düşünməli idilər. Yox, əgər R.Arifoğlu Z.Əsgərov dediyi kimi düşünürsə və problemi N.Həmzəyevlə çözübsə, onda "bizi bu günə salan müxalifət oldu" deyənlər olduqca haqlıdır. Bu yerdə xoşuma gəlməsə də "Allah bazar versin" ifadəsi yerinə düşür".

Təbii ki, burada A. İsmayılov da qəzetimizə qarşı haqsız ifadələrə yol verib. Lakin o, belə bir faktın olmasını iddia etməyib; sadəcə, mövzunun gündəmdən çıxmasının, faktların ortaya qoyulmamasının doğurduğu sualları, bir o qədər də etik olmayan üslubda səsləndirib.



**Rauf Arifoğlu:**
"Əli Kərimliyə yaxın media quruluşları, o cümlədən "Azadlıq" qəzeti Aslan İsmayılovun statusunu qərəzli şəkildə mənim əleyhimə təqdim eləməkdədirlər"



**Aslan İsmaylov:**
"Rəsulzadə məsələsinin qabardılmasına, məlum problemin ictimailəşməsinə səbəbkar olmuş "Yeni Müsavat" qəzetinə və Rauf Arifoğluna qarşı olan hücumları qətiyyətlə pisləyirəm"

**Bu məsələlərə münasibət bildirən Rauf Arifoğlu müxbirimizə deyib ki, "Yeni Müsavat" qəzeti həmişə olduğu kimi, bu dəfə də Rəsulzadə adı ilə bağlı öz mücadiləsini verdi:** "Məsələyə peşəkar, soyuqqanlı yanaşmamız nəticəsində Rəsulzadə tərəfdarları-Azərbaycanda onların sayı yaxşı ki, çoxdur-ciddi bir qələbə qazandılar. Gəncə kimi bir nöqtədə və Rəsulzadənin Azərbaycan dövlətini qurub bayrağını dikəltdiyi bir yerdə bu tarixi şəxsiyyətin başına keçirilən torba götürüldü. İctimai qınaq mexanizmləri yaradıldı, Naqif Həmzəyev iddialarından geri çəkildi və biz cəmiyyətin böyük bir kəsimindən təqdir aldıq. Lakin günü bu gün də Naqif Həmzəyev və onun arxasında duran regional güc mərkəzi tərəfindən məhkəmə ilə hədələnməkdəyik. O cümlədən ANS telekanalı məhkəmə təhdidi qarşısındadır. Lakin onlar məhkəməyə verməyə tərəddüd edirlər. Bir sadə səbəbdən. Onlar bilmək istəyirlər ki, bizim əlimizdə hər hansı bir lent yazısı, videoyazı varmı? Günlərdir bizi provokasiyaya çəkirlər ki, biz əlimizdəkiləri açıb ortaya qoyaq və onlar məhkəmədə necə davranacaqlarını bəri başdan müəyyən eləsinlər, bütün məlumatlara sahib olsunlar. Bizi qıcıqlandırırlar, bəzi "dostlarımız" vasitəsilə əlimizdə hansısa faktın olub-olmamasını araşdırmağa çalışırlar. Bu taktikanı anlayırıq. Lakin biz əlimizdəki sübutları ancaq məhkəmə mərhələsində açacağıq. Buna görə də kimsə özünü yormasın".

**R.Arifoğlu məlumat verdi ki, məlum statusdan sonra hörmətli Aslan İsmayılovla görüşüb, iki saata yaxın müzakirələri olub:** "Onun rəyi mənim üçün mühüm idi. Yanlış məlumatlar əsasında yanlış rəy daşımasını, yaymasını istəmədim. Məsələ ilə bağlı tam məlumatı verdim, sübutları təqdim etdim. Məqsədim həm də məhkəmə mərhələsi üçün ondan təcrübəli hüquqşünas kimi yardım istəmək idi. Aslan İsmayılov sübutlarla tanış oldu və qəzetimiz məhkəməyə verilərsə, bütün gücü ilə bizə dəstək verəcəyini açıqladı. Biz, ümumiyyətlə, 2 saata yaxın danışdıq. Fürsət var ikən ölkədəki vəziyyətə dair onun baxışlarını da öyrəndim. Sizə deyim ki, son aylarda bundan maraqlı müsahib olmayıb. Mövzunun gündəmdən düşməsi isə bizim planımızla olmayıb. Bilirsiniz ki, Naqif Həmzəyevlə bağlı müzakirələrin ən qızğın vaxtında və ən kritik nöqtəsində Xəzər dənizində 32 neftçimizin həlak olması ilə bağlı bir fəlakət baş verdi, ölkənin normal axarı dəyişdi, hər birimizin həyat ritmimiz, planlarımız dəyişdi; o cümlədən xəbər sıralamalarında əhəmiyyətinə görə Naqif Həmzəyev məsələsi arxa plana keçdi və ümumiyyətlə, heç xatırladılmadı. Biz media mənsublarıyıq, gündəmi təqib edirik, nə varsa onun arxasınca gedirik, qeyri-aktuallar bizim üçün keçmiş olur. Amma Rəsulzadə və Azərbaycan, Vətən, millət mövzusu bizim üçün qırmızı xətlərdir, bu xətlər heç zaman arxa plana keçməz. O qırmızı xətlər, xüsusən Rəsulzadə mövzusu heç zaman bizim üçün bazarlıq predmeti ola bilməz. Bu, bizim həyatımızın mənasıdır. Bunu hər kəs belə də bilsin və mən inanıram ki, qərəzkarlarımızdan başqa Azərbaycanın digər kəsimi, yüz minlərlə "Yeni Müsavat" və musavat.com oxucuları bizimlə bağlı bu mövzuda tam arxayındırlar. Əli Kərimliyə yaxın media quruluşları, o cümlədən "Azadlıq" qəzeti Aslan İsmayılovun statusunu qərəzli şəkildə mənim əleyhimə təqdim eləməkdədirlər. Hansı ki, onlar hörmətli Aslan İsmayılova qarşı qarayaxma kampaniyasında yaxından iştirak ediblər. Aslan bəy bununla bağlı dəfələrlə statuslar yazıb, biz də onun haqlı mövqeyini dəstəkləmişik. Bu məsələdə təbii ki, onlar Aslan İsmayılovla barışmayıblar, lakin seçim qarşısında qalanda və iki sevmədikləri şəxslə bağlı münasibətdə birinin yazdığını digərinə qarşı istifadə eləmək təşəbbüsü göstəriblər. Mən Aslan İsmayılova bunları dedim və hətta dostcasına iradımı da bildirdim ki, bizi hədəfə çıxarmısınız, bizə münasibətdə haqsızlıq etmisiniz".

**Məsələ ilə bağlı Aslan İsmayılovla da danışdıq. Aslan İsmayılov bildirdi ki, yazdığı həmin status "Yeni Müsavat" qəzetini və Rauf Arifoğlunu Naqif Həmzəyev məsələsinə görə ittiham etməyə yönəlməmişdi:** "Mən sübutların ortaya qoyulmasını xahiş etmişdim. Bu statusdan sonra Rauf bəylə görüşümüz oldu. Sübutları, dəlilləri gördüm. Bir hüquqşünas kimi də deyə bilərəm ki, Rauf Arifoğlunda kifayət qədər sübut var. Sadəcə, Rauf bəy bu sübutları hələ açıqlanmamasının səbəbinin gələcək məhkəmələrlə bağlı olduğunu dedi. Mən də qəbul etdim ki, düzgün qərardır. Odur ki, indi Məhəmməd Əmin Rəsulzadə məsələsinin qabardılmasına, məlum problemin ictimailəşməsinə səbəbkar olmuş "Yeni Müsavat" qəzetinə və Rauf Arifoğluna qarşı olan hücumları qətiyyətlə pisləyirəm. Mənim üçün vacib deyil ki, kim hansı cəbhədədir, kim hansı qurumdadır. Mənə vacib olan konkret faktlar, ölkənə, Vətəninə olan faydadır. Mən də hesab edirəm ki, "Yeni Müsavat" qəzeti məsələni o cür ictimailəşdirməklə ölkə üçün çox faydalı bir iş gördü. Mən statusuma olan şərhləri pozmamışam. Bu ona dəlalət etmir ki, mən o şərhləri bölüşürəm, onlarla razıyam. Pozmamağımın səbəbi odur ki, mənim qızıl qaydam var, mənim facebookuma yazılan şərhlər bəzən hətta öz ünvanıma böhtan, təhqir xarakterli olsa da pozmuram. Amma "Yeni Müsavat" - Naqif Həmzəyev məsələsi ilə bağlı mən Rauf bəyə görüşümdə demişdim ki, indi sizə söylədiyim fikirləri əks etdirən yeni status yazacağam. İndi ki, siz zəng etdiniz açıqlama aldınız və mən statusda yazacağım fikirləri sizə bildirdim, həmin statusa ehtiyac qalmadı. Mən musavat.com-dan bu yazını götürüb öz facebook səhifəmdə paylaşacağam".

❑ **Etibar SEYİDAĞA**

# Nardaranda növbəti əməliyyatlar

## Narkotik bitkilər axtarılır



**Nardaran Daxili Qoşunların və polisin nəzarətində qalmaqda davam edir. Kənddəki son vəziyyətlə bağlı musavat.com-a danışan Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov bildirdi ki, hazırda kənddə vəziyyət normaldır: "Evlərin əksətiyyətinə işıq verilib. Təbii qazın verilməsinə də başlanılıb. Yolları genişləndirirlər. Polis üçün bina da tikirlər. Artıq xeyli iş görülüb".**

Əldə etdiyimiz məlumata görə, bir neçə gündür Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları kənddə evlərə və bağlara baxış keçirib. Əkin sahələrinə baxış keçirən idarə əməkdaşları narkotik bitkilərin olub-olmamasını yoxlayıblar.

Bu məlumatı kənd ağsaqqalı N.Kərimov da təsdiq edib: "Son bir neçə gündür evlərin həyətinə baxış keçirirlər. Bağlardakı əkin sahələrini yoxlayırlar. Narkotik bitkilərin axtarışını aparırlar. Yəqin ki, bu haqda nəsə məlumat əldə ediblər. Ancaq nəsə tapdıqlarını eşitməmişik".

Qeyd edək ki, dekabrın 1-dən kənddə keçirilən əməliyyatlar zamanı saxlanılanlar var. Kənd sakinlərinin iddiasına görə saxlanılanların sayı 70-ə yaxındır. Lakin rəsmi qurumlar bu haqda məlumat vermir.

Nardaran Ağsaqqallar Şurası da saxlanılanların taleyindən xəbər tutmaq üçün dekabrın 14-də Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsman) müraciət ediblər.

Xatırladaq ki, noyabrın 26-da iki polis əməkdaşının və 4 dindarın ölümü ilə nəticələnən, Tale Bağırzadə ilə yanaşı, daha 13 nəfərin saxlanıldığı hadisədən sonra kənd sakinləri etiraz aksiyaları keçirmişdilər.

Noyabrın 30-dək kəndə giriş-çıxışa kənd sakinləri nəzarət edirdilər. Hökumətlə danışığa gedən kənd ağsaqqalları kənd meydanını boşaltdılar. Dekabrın 1-dən Nardaran Daxili Qoşunların və polisin nəzarətindədir. Həmin gündən keçirilən əməliyyatlar zamanı saxlanılanlardan xəbər yoxdur. Saxlanılanların sayı haqda sonuncu rəsmi açıqlama daxili işlər naziri Ramil Usubov tərəfindən verilmişdi. R.Usubov saxlanılanların 32 nəfər olduğunu bildirmişdi. Bundan sonra kənddə növbəti əməliyyatlar da həyata keçirilib və saxlanılanların sayı artıb.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 281 (6309) 17 dekabr 2015



# Bakı üçün kritik dönəm: İranın, yoxsa Türkiyənin yanında yer almalı?

## İŞİD-i bitirmək planı və Azərbaycan

**Səudiyyə Ərəbistanının təşəbbüsü ilə 34 müsəlman ölkəsinin terrora qarşı birləşməsi və Azərbaycana da dəvət göndərilməsi ölkəmiz ətrafında yeni situasiya yaradıb. Bu situasiya yetərincə çevik və doğru qərarlar verməyi diktə edir. Bir neçə səbəbdən.**

Əvvəla, İslam dünyasının ayrılmaz parçası kimi, erməni terrorundan əziyyət çəkən ölkə olaraq Azərbaycanın yeni koalisiyaya qoşulmaması məntiqsizlik olardı. İkincisi və ən mühümü, 34 dövlətin arasında Azərbaycana ən yaxın, müttəfiq ölkələr sayılan Türkiyə və Pakistan da yer alıb. Üçüncüsü, yeni koalisiyaya qoşulmaq avtomatik şəkildə Azərbaycanın terrordan daha etibarlı qorunmasını təmin edərdi.

Ən azı ona görə ki, ortaq anlaşma və sinxron siyasət nəticəsində böyük bir məkanda terrorçuların ayağının altından yer qaçacaq, demək olar, bütün müsəlman dövlətləri onlardan ötrü əlverişsiz məkana çevriləcək, orada onlar sərbəst şəkildə hərəkət edə, sığınacaq tapa bilməyəcək, dərhal ifşa olunacaq, təcrid ediləcəklər. Təbii ki, terrorçuların maliyyə mənbələri də daralacaq. İŞİD-çilərin isə bu qədər sayda İslam ölkəsinə qarşı vuruşması, duruş gətirməsi, üstəlik, maliyyə çatışmazlığı şəraitində real deyil.

Bundan əlavə, müsəlman dünyası beynəlxalq arenada başqa kritik məsələlərlə bağlı da ayrıca və yeni geosiyasi amil, güc qismində ortaya çıxa bilər. O sırada Qarabağ məsələsində Azərbaycanın daha güclü dəstək qazanması istisna olunmur. Bakının kənarda qalması bütün bu kimi əlavə avantajlardan məhrum olması anlamına gələrdi.

Ancaq burada incə, fəqət, çox mühüm və prinsipial bir məqam da var. Bu da ondan ibarətdir ki, İran Səudiyyə Ərəbistanına və Suriya rejiminə görə *(koalisiya Bəşər Əsədin də ziyanına işləyəcək)* təzə quruma qatılmaqdan imtina edib. Bakıdakı səfir Möhsün Pakayin isə koalisiya əleyhinə sərt açıqlama verib. Azərbaycan koalisiyaya daxil olsa, bu, faktiki surətdə İranın müsəlman dünyasında təklənmiş duruma düşməsinin "rəsmiləşməsi", eyni zamanda anti-İran gedişi demək olacaq.

Bakı üçün üzvlüklə bağlı əngəl və diskomfort yaradan əsas amil də belə görünür, İranın koalisiyadan kənarda qalmasıdır. Heç şübhəsiz, Azərbaycan XİN-i "dəvəti dəyərləndiririk" deyəndə həm də sonuncu məqamı nəzərdə tutur. Gözləyək, görək qərar nə olacaq. Ancaq bizcə, Türkiyə, Pakistan harda, Azərbaycan da bacardıqca orada olmalıdır.

***

Deyilə bilər ki, biz balaca ölkəyik və necə ki, Türkiyə ABŞ-ın qurduğu anti-İŞİD koalisiyasına qoşulduğu halda Azərbaycan ora qoşulmayıb, bu dəfə də eyni yol tuta, neytral qala bilərik. Lakin müqayisə qüsurludur. Çünki söhbət hərbi koalisiyadan getmir. Ən başlıcası, ona qoşulmamaq ölkəmizi İslam dünyasından kənarda qalması mənasına gələr, özünü İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi bir qurumun və qardaş Türkiyənin, Pakistanın Suriya məsələsindəki mövqeyinə qarşı qoymaq, özünütəcrid təəssüratı yaradardı.

**Müsəlman ölkələrinin antiterror koalisiyasi ölkəmizi mürəkkəb seçimlə üzləşdirib; "İslam dünyasında İran, xristian dünyasında isə Rusiya təklənib", Azərbaycan iki qonşunun təklənmə prosesinə qatılacaqmı?..**

Üstəlik, qeyd edildiyi kimi, bu, Qarabağ məsələsi də daxil, Azərbaycanın dərdlərinə onlarla ölkənin laqeyd qalması, BMT-dəki səsvermələrdə səs itkisinə gətirərdi. Unutmaq lazım deyil ki, erməni işğalı məsələsində onların hamısı Azərbaycanın yanındadır. Bu mövqe İƏT-in qətnaməsində də əksini tapıb.

Doğrudur, Nardaran olayları və bu olaylara rəsmi Bakının, QMİ sədrinin reaksiyaları bir daha göstərdi ki, Azərbaycan hakimiyyəti üçün İranla münasibətlər, bütövlükdə İran amili mühüm əhəmiyyət daşıyır; Bakı Tehranla ilişkilərə çox ehtiyatla yanaşır. Amma İrana görə itirdiklərimiz, milli maraqlarımıza dəyəcək zərbələr necə olsun bəs?

***

Məsələyə ekspert yanaşması da diqqətçəkicidir.

**Politoloq Qabil Hüseynli hesab edir ki, yeni formalaşan koalisiya dünyada baş alıb gedən geosiyasi pozuntuları, mərkəzdənqaçma meyllərini aradan qaldıracaq və yeni dünya düzəninin formalaşmasına təkan verəcək (axar.az). Sabiq dövlət müşavirinə görə, anti-Rusiya meylləri Qərbdən ərəb ölkələrinə, oradan bütün müsəlman dünyasına sıçrayıb:** "Səudiyyə Ərəbistanı dəfələrlə Rusiyaya bu və ya digər formada xəbərdarlıq edib. Hətta buna görə Rusiya və İranı təhdid edir, Bəşər Əsədin zorla və ya xoşluqla hakimiyyətdən gedəcəyini vəd edir. Son dövrlər İŞİD və Əsədə qarşı ən kəskin, prinsipial mövqedə dayanan ölkə məhz Səudiyyə Ərəbistanıdır. Ər-Riyad bu yolda bütün vasitələrə əl atır. Özü də bunu Rusiyanın hərəkətləri fonunda edir. Neftin qiymətinin aşağı düşməsi bunun bariz nümunəsidir. Üstəlik, yeni koalisiya Rusiya və İranla ölüm-dirim savaşına çıxacaq. Bunu bilən İran isə Suriyadan öz xüsusi təyinatlılarını *(İslam İnqilabı Keşikçi Korpusunun qüvvələrini - S.S.)* geri çəkərək yalnız qurudan dəstəyini saxlayır".

**Politoloqun qənaətincə, Rusiya meydanda artıq tək qalıb:** "ABŞ-ın başçılığı altında 45 ölkədən ibarət koalisiyada olan bəzi dövlətlər yeni birlikdə də yer alır. Səudiyyə və ABŞ Rusiya, Suriya və terror məsələlərində ortaq xətt yürüdürlər. Son günlər çox maraqlı, bütün dünyanın simasına təsir edəcək geosiyasi proseslər baş verir".

**Ekspertin fikrincə, ən mühüm detal antiterror koalisiyalarının Rusiyadan kənar formalaşmasıdır:** "Neftin qiymətinə edilən təzyiqlər daha çox Rusiyanı vurur. Müsəlman dünyasında İran, xristian dünyasında isə Rusiya təklənib. Ancaq Rusiyadan fərqli olaraq İran körpüləri axıra qədər yandırmaq istəmir. Rusiya isə inad göstərməklə yanaşı, siyasəti "dalan əxlaqı" ilə idarə etməkdə davam edir. Bu, Moskva üçün yaxşı nəticələrlə bitməyəcək. Bundan sonrakı hadisələr çox sürətlə inkişaf edəcək. Qərb koalisiyasında ABŞ bundan sonra daha qərarlı mövqe tutacaq. Avropa Birliyinin əksər ölkələri bu dəfə, sadəcə, mənəvi, siyasi deyil, hərbi dəstək də verəcəklər. Beləliklə, Suriya ətrafında həlqə daralır. Bunu həm də Rusiya ilə bağlı söyləmək mümkündür".

***

Göründüyü kimi, Bakı üçün koalisiyaya qoşulmaqla bağlı İran amili ilə birgə Rusiya faktoru da əlavə həssasiyyət qazanıb. Sözsüz ki, rəsmi Moskva Tehran kimi öz ətrafında formalaşmış yeni əlverişsiz geosiyasi durumun fərqindədir. ABŞ dövlət katibi Con Kerrinin Rusiyada ən yüksək səviyyədə, prezident Vladimir Putin səviyyəsində görüşlər keçirərək saatlarla danışıq aparması da istisna deyil ki, ayrıca koalisiya qurmaq cəhdləri fiasko olan Kremlin təcriddən qaçmaq niyyətindən qaynaqlanır.

❑ **Siyasət şöbəsi**

# "“Günəşli”dəki qəzadan sonra neft sızması Xəzəri çirkləndirib"

## İtkin düşən neftçilərin taleyindən isə heç bir xəbər yoxdur



**Dekabrın 4-də "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə baş verən qəzadan sonra itkin düşən 23 neftçidən xəbər yoxdur. Həmçinin Neft Daşlarında baş verən qəzadan sonra itkin düşən 3 neftçinin də axtarışı davam edir.**

Musavat.com xəbər verir ki, axtarış işlərində Fövqəladə Hallar Nazirliyinin, Xəzər Dəniz Gəmiçiliyinin və Sərhəd Qoşunlarının qüvvələri iştirak edir.

Dekabrın 5-dən başlayan xilasetmə işləri yalnız ayın 7-də nəticə verib və itkin düşən 32 neftçidən 6-nın meyiti tapılıb.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov aparılan axtarış işləri ilə bağlı açıqlama verib.

Nazir bildirib ki, "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə yanğınsöndürmə işlərinin birinci fazası başa çatıb və artıq bir quyunun ağzı bağlanıb.

**Digər quyularda da yanğının söndürülməsi üçün işlərin davam etdirildiyini deyən K.Heydərov itkin düşən neftçilərin axtarışlarının hər gün davam etdirildiyini əlavə edib:** "Havanın pis olduğu günlərdə də işlər davam etdirilir. Axtarışlar üçün başqa vasitələrdən də istifadə edəcəyik. Estakadaların dibinə baxış keçiriləcək. Əsas estakadanın dibində işləmək mümkün deyil. Onun dibində soyutma işləri aparılır".

Baş verən qəzadan sonra yaranan daha bir təhlükə Xəzərin neftlə çirklənməsi ehtimalıdır. Və artıq bu haqda iddialar da var.

Bəzi mütəxəssislərin fikrincə, hazırda davam edən yanğının söndürülməsi mümkündür. Lakin yanğın söndürüləcəyi halda quyulardakı neft dənizə axacaq. Bu isə Xəzərin çirklənməsinə səbəb olacaq. Bu səbəbdən də yanğının söndürülməsi prosesi ləngidilib.

Hazırda yanğının söndürülməsində 6 gəmi iştirak edir. Həmçinin yanğının söndürülməsi üçün "Boots&Coots" şirkətinin sifarişi əsasında ölkəyə gətirilən avadanlıqlar artıq gəmilərdə quraşdırılıb. "Boots&Coots"un da yanğının söndürülməsində iştirak etməsi üçün hazırlıq işləri görülür.

Qeyd edək ki, yanğın hadisəsindən sonra ətraf mühitə mümkün təsirlərin öyrənilməsi məqsədilə ekologiya və təbii sərvətlər nazirinin göstərişi əsasında nazirliyin mütəxəssislərindən ibarət Ekspedisiya Qrupu yaradılıb.

Ekspedisiya Qrupunun ilkin rəyinə görə, yanan 4 qaz quyusundan çıxan təbii qaz tam yandığı üçün atmosfer havasına zərərli təsiri nisbətən azdır. Yəni bu, ölkədəki istilik elektrik stansiyalarında yandırılan qazın atmosferə atdığı karbon birləşmələrindən ibarətdir. Yalnız 3 qaz-kondensat quyusundan müəyyən qədər kondensat sızması ehtimalı dəyərləndirilir. Lakin bu quyulardan çıxan karbohidrogenlərin yanması dənizə neft sızması ehtimalını sıfıra endirir və yuxarıda qeyd edildiyi kimi karbohidrogenlər yandıqda daha az zərərli maddələrə çevrilir. Qrupun müşahidələrinə görə dənizdə çirklənmə, platformanın ətrafında neft ləkələri yoxdur.

**Hazırda yanan quyulardan Xəzərə neftin axması ilə bağlı səsləndirilən fikirlərə Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı da münasibət bildirib.**

**Təşkilat rəhbəri musavat.com-a açıqlamasında belə bir faciənin fəsadsız ötüşməyəcəyini deyib:** "10-cu platformadakı yanğının fəsadları böyük olacaq. Bu fəsadlara əlbəttə ki, ekoloji fəsadlar da daxildir. Dənizə (fauna və florasına) dəyən ziyanlar, yanğın zamanı havaya atılan tullantılar -bunlar böyük fəsadlardır. Təbii ki, bununla əlaqədar SOCAR cərimələnə də bilər".

**M.Qəhrəmanlı bununla bağlı hesabat hazırladıqlarını və ictimaiyyətə təqdim edəcəklərini də bildirib:** "Düşünmürəm ki, belə bir yanğın fəsadsız ötüşsün. Bu qəza və onun fəsadları ilə əlaqədar təşkilatımız alternativ hesabat hazırlayır. Yəqin ki, yanvarın ortalarına bu hesabat ictimaiyyətə təqdim olunacaq".

Qəzadan sonra Xəzər dənizinin neftlə çirklənməsi xəbərini "Sentinel-1A" radiolokasiya peykindən aparılan çəkilişlər də təsdiq edib. Dekabrın 13-də Avropanın "Sentinel-1A" radiolokasiya peykindən qəzanın baş verdiyi ərazinin çəkilişləri aparılıb. Çəkiliş zamanı məlum olub ki, "Günəşli" yatağının ətrafı neftlə çirklənməkdədir və çirklənmə şimala doğru genişlənir. Dekabrın 13-nə çirklənmiş ərazinin sahəsi 300 kvadrat kilometr təşkil edib.

SOCAR-ın İctimaiyyətlə əlaqələr şöbəsi və "Azərkosmos" ASC-nin Korporativ kommunikasiya departamenti bu iddiaları əsassız hesab edir.

❑ **İlkin MURADOV**

## Ermənistandan ölkəmizə qarşı diplomatik həmlə

# Avropa Şurasından Azərbaycana sürpriz zərbə - şok gəlişmə

### AŞ PA-da antierməni qətnamələrinin qəbulu ərəfəsində qurumun baş katibi Torbyörn Yaqland ölkəmizlə bağlı xüsusi araşdırma aparmağa göstəriş verib; Yeni ilədək siyasi dustaqların azad edilməsi ikiqat önəmli...

**Son zamanlar Azərbaycanda siyasi dustaqlarla bağlı hakimiyyətin atdığı kövrək addımlar, gözlənildiyi kimi, ölkəmizin üzv olduğu Avropa strukturlarında təqdirlə qarşılanıb. Xüsusən də Leyla və Arif Yunus cütlüyünün azad edilməsi həm Avropa Birliyi, həm də Avropa Şurası rəhbərliyi tərəfindən alqışlanıb, bunun davamının gələcəyinə ümid ifadə edilib.**




Gözləmək olardı ki, belə bir davamın gəlməsi üçün adıçəkilən qurumlar və onların rəhbərliyi zəruri atmosferin saxlanmasına və gücləndirilməsinə hansısa şəkildə yardım edəcək, rəsmi Bakıya qarşı ənənəvi sərt ritorikadan və əks-effektli təzyiq taktikasından bir qədər uzaqlaşacaq. Lakin Azərbaycanla Avropa arasında münasibətlərin ılıqlaşmağa üz tutduğu məqamda hakimiyyət üçün, ölkəmiz üçün xoşagəlməz sürpriz sayılan fakt ortaya çıxıb.

Belə ki, AzadlıqRadiosu xəbər yayıb ki, **Avropa Şurasının baş katibi Torbyörn Yaqland** Azərbaycanın Avropa İnsan Haqları Konvensiyasını necə yerinə yetirməsi üzrə rəsmi araşdırmaya başlayıb. Baş katib deyib: "Avropa İnsan Haqları Məhkəməsinin qərarları Azərbaycanda tənqidi səslərin susdurulması, söz azadlığının məhdudlaşdırılması üçün hüququn özbaşına (əsassız) tətbiqini üzə çıxarıb. Belə narahatedici bir şəraitdə durumun düzəlməsinə yönəlik müsbət addım atılmadığından, Azərbaycana təmsilçilər göndərəcəyəm. Onlar ölkənin insan haqları konvensiyasının icrası ilə bağlı hakimiyyətdən izahat istəyəcəklər".

**Yaqland daha sonra deyib:** "Fərdlər səlahiyyət sahiblərinin hakimiyyətdən sui-istifadəsi nəticəsində azadlıqlarından məhrum edilməsində xüsusi təşviş keçirirəm. Avropa İnsan Haqları Məhkəməsi İlqar Məmmədovun işində bunu üzə çıxarıb. Bu, konvensiyanın çox ciddi pozulmasıdır". Avropa Şurasının yaydığı açıqlamada xatırladılır ki, ötən ilin mayında Avropa Məhkəməsi İlqar Məmmədova qarşı cinayət işinin hüquqi baxımdan əsassızlığını, onun azadlığının əlindən almaq, hökuməti tənqid etdiyi üçün susdurmaq məqsədi daşıdığını bəyan edib.

***

Yada salaq ki, Avropa Məhkəməsi bu yaxınlarda başqa bir siyasi məhbus Tofiq Yaqublu ilə bağlı da analoji qərar çıxarıb. Avropa İnsan Haqları Konvensiyasının 52-ci maddəsinə uyğun olaraq isə baş katib üzv ölkələrdə yerli qanunvericiliyin konvensiyanın icrasına necə təminat verdiyini araşdıra bilər. Ancaq məsələni maraqlı edən həm də budur ki, 52-ci maddə üzrə araşdırmalar nadir hallarda aparılır - baş katib ilk dəfədir ki, buna əl atır.

Bu yerdə onu da xatırlatmaq zərurəti var ki, bir müddət öncə Torbyörn Yaqland Azərbaycanda insan haqları üzrə hökumətlə birgə yaradılan İşçi Qrupdan çıxıb.

Əlbəttə ki, Azərbaycanda siyasi məhbuslar probleminin olması sirr deyil və onun həllinə çalışmaq normaldır. Lakin Yaqlandın qərarının məhz Yeni il qabağı - ölkədə əfv fərmanı ilə siyasi məhbusların da bir hissəsinin azad ediləcəyinin real olduğu ərəfəyə təsadüf etməsi əlavə suallar doğurur: indiki məqamda bu, kimə və nəyə lazım idi və yenə də siyasi dustaqlar üçün əks işarəli nəticəyə gətirməyəcək ki?

***

Məsələdə başqa bir diqqətçəkən detal: məlum olduğu kimi, gəlin ilin yanvarında Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyasında Azərbaycanla bağlı iki mühüm sənəd səsverməyə çıxarılacaq. Onlardan biri Dağlıq Qarabağla, digəri isə ermənilərin nəzarətindəki Sərsəng su anbarı ilə bağlıdır. Artıq qurumun müvafiq komitələrində *(Siyasi və Sosial komitələr)* təsdiqlənən hər iki qətnamə layihəsində Ermənistan birmənalı şəkildə işğalçı dövlət kimi göstərilir, Dağlıq Qarabağ və ətrafındakı 7 rayonun işğal altında saxlandığı xüsusi vurğulanır.

O da bəllidir ki, bu fakt Ermənistanın siyasi, hakimiyyət və ekspert dairələrində ciddi təlaş və məyusluq doğurub, "diplomatik fiasko" adlandırılıb. Artıq prezident Serj Sərkisyanın tapşırığı əsasında AŞ PA-da Azərbaycanın xeyrinə olan qətnamələrin qəbulunu əngəlləmək, yaxud onun məzmununu yumşaltmaq üçün Azərbaycana qarşı diplomatik həmlə barədə, bütün mümkün və qeyri-mümkün vasitələrdən istifadə barədə göstəriş verilib.

Heç şübhəsiz, Avropa Şurası baş katibinin son qərarı ermənilərin dəyirmanına su tökəcək, onların sessiyada Azərbaycana qarşı hücumlarını kəsərli edəcək. Bu da yekun etibarilə hər iki qətnamənin mətninə xeyrimizə olmayan düzəlişlərə gətirə bilər...

***

Sözsüz ki, biz Yaqlandın erməni diasporu ilə nə dərəcədə yaxın olduğunu söyləyə bilmərik. Ancaq ələhəzrət faktlar və onların üst-üstə düşməsi də özlüyündə az şey demir. Bütün hallarda rəsmi Bakının indidən müvafiq kontur-tədbirlər haqda düşünməsinə lüzum var. Yeni ilədək siyasi məhbusların hamısının azad edilməsi bu yöndə Ermənistana və onun havadarlarına ən tutarlı kontur-zərbə olardı...

❑ **Analitik xidmət**

# Manat ucuzlaşmaya doğru gedir - devalvasiya gün sayır...

### Ekspertlər bildirirlər ki, manatın taleyinin müəyyənləşdirilməsində FED-in iclasının rolu az olmayacaq...

**Milli valyuta olan manatın devalvasiyası artıq gün məsələsidir. Əksər ekspertlər bu fikirdədir və Mərkəzi Bank üçün manatı saxlamağın artıq mümkün olmadığını bildirirlər. Üstəlik, bildirilir ki, Amerikada Federal Ehtiyat Sisteminin (Mərkəzi Bank) iclası manatın devalvasiyasını bir qədər də sürətləndirə bilər. Həmin iclasda uçot dərəcələrinin artırılması dolların möhkəmlənməsinə, bunun da nəticəsi olaraq manatın ucuzlaşmasına səbəb ola bilər. Ekspertlərin sözlərinə görə, bununla təkcə manat deyil, bir çox ölkələrin valyutaları dəyər itirəcək.**



**Ekspert Qubad İbadoğlu** məsələ ilə bağlı bildirib ki, FES-in uçot dərəcələrini artıracağı ehtimal olunur: "ABŞ-da Mərkəzi Bankın funksiyasını yerinə yetirən Federal Ehtiyat Sisteminin (FED) Federal Açıq Bazar Komitəsində (FABK) başlayan növbəti müzakirələr dekabrın 16-da başa çatacaq. Ehtimal olunur ki, FEC son 9 ildə ilk dəfə olaraq uçot dərəcələrini artıracaq. Buna ABŞ iqtisadiyyatında müşahidə olunan sabitlik və onun gələcəyi ilə bağlı nikbin gözləntilər əsaslar yaradır. FED-in xanım sədri Janet Yellen keçirəcəyi mətbuat konfransında FABK-dakı müzakirələrin nəticələrini açıqlayacaq. Əgər FED uçot dərəcələrini dəyişməklə bağlı qərar qəbul edərsə, bu, dünya maliyyə bazarlarında stress yaradacaq, xüsusilə də bu stressdən ciddi təsirlənən inkişaf etməkdə olan zəif və həssas iqtisadiyyatlı ölkələr, o sıradan Rusiya, Cənubi Afrika, Türkiyə, hətta Çin və Hindistan olacaq. Bu ölkələrin milli valyutaları heç şübhəsiz ki, ABŞ dollarına nəzərən dəyərini bir az da itirəcək. Bu halda həmin ölkələrin orbitində olan iqtisadiyyatlara da psixoloji effektlər üzrə neqativ təsirlər müşahidə oluna bilər. Azərbaycan da belə təsirlərdən sığortalanmayıb. Bu, ölkəmizdə azalması müşahidə olunan valyuta ehtiyatlarının tükənməsini sürətləndirə bilər. Çünki hazırkı şərtlərlə Mərkəzi Bank manatın sabitliyini qorumaq üçün mənasız xərcləmələrə rəvac verəcək. Hesab edirəm ki, manatın taleyinin müəyyənləşdirilməsində bu hadisənin rolu az olmayacaq. Bununla yanaşı, avronun da dollara nəzərən ucuzlaşması, Avropa və Asiya Fond birjalarında səhmlərin dəyərsizləşməsi də gözləniləndir".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, manatın taleyi konkret olaraq FED-in iclası keçirilən gün həll olunmur:** "Yeni FED uçot dərəcəsini artırsa belə, bu, o demək deyil ki, sabah manat devalvasiya olacaq. Ola bilər, dollar sabah manata münasibətdə cüzi bahalaşsın. Ancaq bu bahalaşma həmişəki səviyyədə olacaq. Hətta sabah manatın rəsmi məzənnəsinin ucuzlaşmasını da istisna etmirəm. Bugünkü avro\dollar məzənnəsinin davranışından asılı olacaq. Manatın taleyinin FED-in bugünkü qərarından birbaşa asılılığı yoxdur. Qısası, FED-in uçot dərəcəsini qaldırması manatın mütləq devalvasiyası anlamına gəlməlidir. Və ya uçot dərəcəsinin qaldırılmaması manatın ucuzlaşmaqdan qurtulması kimi qiymətləndirilməməlidir".

**Ekspert Vüqar Bayramov isə musavat.com-a açıqlamasında bildirib ki, FED-in qərarı qlobal valyuta bazarına təsir göstərəcək:** "Düşünmürəm ki, bu qərar manatın taleyi ilə bağlı həllediciidir. Dolların güclənməsi manata psixoloji təzyiqi artıracaq. İnsanlar elə etdikləri manatı dəyişməyə çalışacaqlar və bu da valyutanın məzənnəsinə təsir göstərəcək. FED-in qərarına bütün proseslərin sonu kimi baxılmamalıdır. ABŞ dolların kəskin bahalaşmasında maraqlı olmayacaq. ABŞ müəyyən müddətdən sonra Çin valyutasının zəifləməsinin qarşısında dolları stabilləşdirməyə çalışacaq. Azərbaycan Mərkəzi Bankının həyata keçirdiyi siyasətdən asılıdır manatın taleyi. Mərkəzi Bank çevik siyasət həyata keçirə bilsə, doğru zamanda üzən valyuta rejiminə keçərsə, manata təzyiqləri azaldacaq. Mərkəzi Bank manatın məzənnəsini qoruyub saxlaya bilər. Manatın vəziyyəti birbaşa Mərkəzi Bankın atacağı addımlardan asılı olacaq".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 281 (6309) 17 dekabr 2015

# Vergilər Nazirliyində "köhnə tas"...

## "Paket" sisteminin əvvəlki kimi tam gücü ilə işləməsi bu qurumda vəziyyətin yaxşılaşacağı ümidlərini puç edib

**"MTN işi"nin Vergilər Nazirliyinə uzantısı, "mahmudovçu"lara sahibkarları "ov"lamaqda Vergilər Nazirliyində çalışan yüksək vəzifə daşıyan şəxslərin dəstək verdiyi haqda yazmışdıq. Onlardan biri, Vergilər Nazirliyinin idarə rəisi, 3-cü dərəcəli dövlət dövlət ədliyyə müşaviri Vidadi Məmmədov bir qədər əvvəl vəzifədən çıxarılaraq "MTN işi" ilə bağlı Baş Prokurorluğun başladığı istintaqa cəlb edilib.**



Qeyd edək ki, V.Məmmədov bu ilin avqust ayında Vergilər Nazirliyində geniş səlahiyyətlər verilmiş cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili baş idarəsinə rəis təyin edilmişdi. Redaksiyamıza daxil olmuş iddiaya görə, o da MTN-in təlimatları əsasında iş adamlarını soyurmuş. V.Məmmədov iş adamlarını öz otağına çağıraraq istədiyi rüşvəti ala bilmədiyinə görə qoluna qandal da vurdura bilirmiş. V.Məmmədovun rəhbərlik etdiyi yeni idarə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin, borcluların əmlakına həbs qoyulmaq kimi geniş səlahiyyətlərə sahib olub. Vergilər Nazirliyində yüksək post tutan, vaxtilə Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin rəisi vəzifəsində çalışmış Habil Məmmədovun da MTN-dəki idarə rəisləri ilə, xüsusilə Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Füzuli Əliyevlə sıx əlaqəsi olub. F.Əliyevin H.Məmmədovla sıx əlaqədə olduğu günlərdə iri sahibkarlar MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinə çağırılıb, orada var-dövlətləri, milyonları əllərindən alınıb. H.Məmmədovun kolleqası Vidadi Məmmədov "MTN işi" üzrə istintaqa cəlb olunanda belə xəbərlər vardı ki, o, sahibkarlar haqda məlumatları "mahmudovçu"lara ötürüb.

MTN-in həbs olunan üzvlərinin sadə vətəndaşlardan tutmuş sahibkarlara, rəhbər işçilərə qarşı törətdiyi cinayətlərə yeniləri əlavə olunmaqdadır. Bu qruplaşmanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə yanaşı Vergilər Nazirliyinə uzanan əlləri olub.

Gələn məlumatlar onu deməyə əsas verir ki, Eldar Mahmudov dövlət qurumlarındakı adamları vasitəsilə ölkə rəhbərliyinin sosial-iqtisadi durumun yaxşılaşmasına yönələn fərmanlarının icrasını əngəlləyib. Prezidentin sahibkarlığın inkişafı haqda verdiyi fərmanların sahibkarların əleyhinə çevrilməsi üçün çox ciddi qanunsuzluqlar həyata keçirilib. Azərbaycanda son bir ildə 30 min iş yeri bağlanıb. Prezidentin son müşavirədə iş yerlərinin bağlanmasının əsas səbəbkarlarından biri kimi Vergilər Nazirliyini, Vergi Audit Departamentini və Bakı Şəhər Vergilər Departamenti göstərməsi təsadüfi deyil.

Vergilər Nazirliyinin "mətbəx"i haqda bilgili olan qaynağımız deyib ki, prezidentin tənqidlərindən sonra vəziyyətin yaxşılaşdırılması üçün bəzi addımlar atılsa da, bunun ümumi prosesə təsiri olmayacaq. Qaynağımız deyir ki, "paket" sisteminin əvvəlki kimi tam gücü ilə işləməsi durumun yaxşılaşacağı haqda ümidləri yox etmiş olur.

Qaynağımız deyir ki, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri olan Habil Məmmədov 2015-ci ilin fevralında Bakı Vergi Departamentinə rəis vəzifəsinə keçirilənədək Audit Departamentinin rəisi işləyib. 2011-ci ilin fevralında H.Məmmədovun Audit Departamentinin rəisi vəzifəsindən çıxarılması haqda qərar verilib. Lakin sonradan qərar dəyişdirilib və H.Məmmədov vəzifəsində qalıb. Fazil Məmmədovun 1-ci müavini Natiq Əmirovla yaxın münasibətdə olan H.Məmmədovun vəzifəsində qalmasında da nazir müavinin rolu olduğu deyilir.

**Qaynağımız Vergilər Nazirliyindəki "paket" alan rəhbər şəxslərlə bağlı bunları qeyd edib:**

- Audit Departamentində Azər adlı idarə rəisi və «Qara Namiq» adı ilə tanınan idarə rəisi hər ay hər biri 30 min manat; Departament müavinləri İsrafil Qasımov, Nəsimi Cəfərov və Rafiq Qurbanovun hər ay hər biri 50 min manat "paket" almaları haqda məlumat var.

Rafiq Qurbanovun nazir Fazil Məmmədovun tələbə yoldaşı olduğu da bildirilir.

Qaynağımızın sözlərindən bəlli olur ki, 1999-cu ildən Vergilər Nazirliyində özlərinə mövqe tutan bu şəxslər sahibkarlara qarşı şiddət saçan, keskin davranışları ilə ad çıxarıblar. Onlar sahibkarlardan topladıqları xəracla Azərbaycanın müxtəlif bölgələrində obyektlər, fermer təsərrüfatları, hektarlarla torpaq sahələri, təzə tikilən binaların çoxunda evlərə sahib olublar.

Habil Məmmədovla Nəsimi Cəfərovun Nərimanov rayonunda şərik olduqları "Fosfor" hoteli fəaliyyət göstərir.

Qaynağımız deyir ki, sahibkarların arasında anonim sorğu keçirilsə və onlardan "Sizi kim incidir" sualına cavab istənilsə, ilk yerlərdə adları sadalanan şəxslər ondan olacaq. "Bütün bu qanunsuzluqları, sahibkarların başına gətirilən oyunları Vergilər Nazirliyində çalışanlar tək etməyiblər, onlara Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Füzuli Əliyev çox ciddi dəstək verib. Füzuli Əliyev həbsdə olsa da, bu adamlar öz işlərindədir"- deyə, qaynağımız bildirib.

❑ **E.HÜSEYNOV**

***P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# "MTN işi": Füzuli rayonunda vəzifəliləri gizli dinləyiblər iddiası

## İdarə rəisi Sübahir Qurbanovun həbsindən sonra qudası, Füzulinin Təhsil Şöbəsinin müdiri niyə vəzifəsindən azad edilib?

**Eldar Mahmudovun tutduğu postdan uzaqlaşdırılmasından sonra məlum oldu ki, onun çetesi Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki adamları vasitəsilə hakimiyyətin ən müxtəlif pillələrində dayanan vəzifə sahiblərini dinləyib, barələrində kompromat toplayıb, şantaj edib və nəzarət altında saxlayıblar.**



Hazırda bu əməllərinə görə Eldar Mahmudovun ən yaxın ətrafına daxil olan generallar, şöbə rəisləri həbsdədirlər. Onlardan biri də MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi Sübahir Qurbanovdur. Dekabrın 4-də onun qudası, Füzuli Rayon Təhsil Şöbəsinin müdiri Almaz Həşimova vəzifəsindən azad edilib.

A.Həşimova bu vəzifədən öncə rayondakı internat məktəbinin direktoru olub. Alı Alıyev Füzulinin icra başçısı təyin olunandan sonra A.Həşimova təhsil şöbəsinə müdir gətirilib. YAP üzvü, RTŞ sədri Hafiz Tahirov isə yola salınıb. A.Həşimova ilə A.Alıyevin dostluq əlaqələri var.

**İddiaya görə, A.Həşimova ilə A.Aliyev rayonda büdcə mənimsəmələrində birgə fəallıq nümayiş etdiriblər. S.Qurbanovun həbsindən sonra isə A.Haşımova üçün cəzasızlıq dövrü bitib:** "Ancaq işlərin tərs getməsi və A.Həşimovanın vəzifəsindən çıxarılması MTN-dəki həbslərlə bağlı olub. Mənbə iddia edir ki, həbs edilən generallardan birinin A.Həşimova ilə qohumluq əlaqəsi var və onu himayə edirmiş. Həmin yüksək vəzifəlinin həbsi A.Həşimovanın işini itirməsi azmış kimi, fəaliyyətinin araşdırılmasına da səbəb olub. Qeyd edək ki, Füzuli Rayon Təhsil Şöbəsindəki nöqsanlardan dəfələrlə yazılıb. Müəllimlərin bir çoxu repetitor çalışır və məktəblərdə dərs öyrətmirlər. Hətta dərslərə belə gəlmirlər. Direktorlar isə həmin müəllimlərdən rüşvət alaraq onların məktəbdən yayınmalarına göz yumurlar. Onların dərs saatları yazılır və maaşları direktorlarla təhsil şöbəsinin müdiri tərəfindən götürülür. Füzuli RTŞ-nin xərclərini ödəmək məqsədilə keçirilən tenderlərdə külli miqdarda pul mənimsənilib. Bu tenderlərin əksəriyyətini məhz A.Həşimovaya məxsus olan "Valeh-H" MMC, "Ülkər-H" MMC, Vüsal-84 MMC, "Nəfs-RR" MMC firmaları qazanır. Məlumatda həmçinin vurğulanır ki, tenderlərə ayrılan vəsaitin heç 30 faizi təyinatına görə xərclənmir və ayrılan vəsaitlərin çox hissəsi mənimsənilir. Maliyyə Nazirliyi tərəfindən aparılmış yoxlama nəticəsində şöbədə 600 min manatlıq mənimsəmə faktı aşkarlayıb".

"Yeni Müsavat"a daxil olan məlumatda isə A.Həşimovanın işdən çıxarılmasının qudası S.Qurbanovla əlaqəli olduğu deyilir. Bildirilir ki, MTN-dəki "təmizləmələrdən" öncə rayonda baş verən hər bir məsələ detallı şəkildə icra başçısına çatdırılıb. Hətta MTN-in rayon şöbəsi rəisinin şəxsi danışıqları belə hansısa formada rayon rəhbərliyinə məlum olub. Sonradan informasiya sızıntısının hansı üsulla baş tutması haqda rayonda xəbərlər dolaşmağa başlayıb. A.Həşimovanın qudası Sübahir Qurbanovun məsələdə adı hallanmağa başlayıb. S.Qurbanovun həbsindən sonra isə məsələ yenidən gündəmə gəlib və A.Haşımovanın tutduğu postdan çıxarılması üçün tədbir görülüb. S.Qurbanovun həbsinə qədər təhsil şöbəsinin müdirinə dəstək verən icra başçısı yoxlamaların nəticəsinə müdaxilə etməkdən yayınıb. Belə məlumatlar var ki, rayonun vəzifəli şəxslərinin, prokurorun, polis rəisinin, MTN-in rayon şöbəsinin rəisi Əli İsgəndərovun və digər vəzifəlilərin gizli dinlənilməsindən əldə olunan məlumatlar sonradan icra hakimiyyətindəki kabinetlərə yol tapıb.

❑ **E.HÜSEYNOV**

***P.S.** Yazıda adıçəkilən hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*



# "Akula Akif"in şəriki haqda şok bilgilər

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun ən sadiq adamlarından biri, "Akula Akif" kimi tanınan Akif Mustafayevlə bağlı redaksiyamıza yenə məlumat daxil olub. Xəbər verdiyimiz kimi, Akif İsmayıl oğlu Mustafayev özünü iş adamı kimi tanıtsa da, əslində onun əsas vəzifəsi imkanlı iş adamları haqda MTN-dəki mütəşəkkil qruplaşmaya dosye toplayıb çatdırmaqdan ibarət olub.**

"Akula Akif"nın sxeminə əsasən, MTN həmin iş adamları barədə dosyeləri aldıqdan sonra onları izləyir və əvvəlcədən quraşdırılan ittihamlarla həbs edirdi. "Akula Akif" hər belə "əməliyyat"dan sonra dövriyyəyə girib həbs olunan şəxsin yaxınları ilə MTN-dəki qruplaşma arasında vasitəçilik edib. Ona həbs olunan şəxsin yaxınlarından alınan milyonlardan pay veriblər. "Akula Akif" MTN-dən "xilas etdiyi" iş adamlarının biznesinə gələcəkdə bu kimi problemlərdən sığortalanmaq üçün "krışalıq" edib və onların biznesinə 25-30 faiz payla şərik olub.

Aldığımız son məlumatda deyilir ki, "Akula Akif"in Vilayət Qələndərli soyadlı bir biznesmen ortağı olub. Mənbə bildirir ki, V.Qələndərli "Akula Akif"ə çirkin işlərdə yaxından kömək edib və ona şərik olub. Vilayət Qələndərli hazırda azadlıqdadır. "Akula Akif"in sayəsində onun yaxınları hazırda dövlət işində işləyirlər. Onlardan biri də Vilayət Qələndərlinin oğlu Taleh Qələndərli olub. O, MTN ləğv olunana qədər qurumun tabeliyindəki rayon şöbələrindən birində rəhbər vəzifədə işləyib.

Mənbə Vilayət Qələndərlinin bacanağı haqda da məlumat verib. Qeyd edib ki, 3-cü mikrorayonda baytar həkim işləyən həmin şəxs "Akula Akif"in xahişi ilə Bakı Şəhər Baytarlıq İdarəsinə rəhbər vəzifəsinə gətirilib.

Yada salaq ki, Bakı Şəhər Baytarlıq İdarəsinin rəisi 2013-cü ildə dəyişdirilib. Həmin ilin dekabrında Aslan Aslanov idarəyə rəis təyin olunub.

❑ **E.HÜSEYNOV**



# "Vədinizi unutmayın"

Samir SARI

**Adam hər dəfə xarici səfərdə olanda özünə söz verir ki, ingilis dilini mütləq təkmilləşdirəcək, amma ölkəyə qayıdandan sonra iş-güc adamın başını qatır və xarici dilin təkmilləşdirilməsi barədə düşüncələr bir də qalır növbəti səfərə.**

Əslində orta məktəbdə və universitetdə babat ingilis dili dərsi keçmək və öz üzərində müntəzəm işləmək (ingiliscə qəzet-kitab oxumaq) kifayət edir ki, adam xarici səfərdə olanda çulunu sudan çıxarsın, ünvan soruşsun, al-ver eləsin, qarnının dərdini desin.

Nə yazıq ki, zaman keçdikcə öyrəndiklərimizi unuduruq, yeri gələndə adi bir sözü tapıb demək üçün hıqqana-hıqqana qalırıq.

Son aylarda getdiyimiz səfərlərdə bir neçə dəfə dilbilməzlik problemi yaşadıq. Yaxşı ki, heyətimizin üzvləri arasında ingilis dilini yaxşı bilənlər də vardı, ehtiyac olanda onlar dili pis bilənlərə və heç bilməyənlərə kömək edirdilər.

Fəxarət duya-duya deyə bilərəm ki, biz dünyanın ən yaxşı dil öyrənən, başqa millətlərlə asan dil tapan camaatıyıq. Bizimkilər ingiliscə mətbuat konfransı keçirir, 40 ilin ingilisi öz dilini mükəmməl bilmədiyi üçün özünü qınayır. Hələ rusdilliliyimizdən danışmıram. Bu məsələdə zirvələr fəth etmişik. Bakıda oğlanlar var, rus dilində yeni-yeni sözlər yaradıblar, rusca elə aksentsiz, koloritli, zəngin leksikonla danışırlar ki, kəlməbaşı "ço", "bləd", "ni xrena" kimi vulqar sözlər işlədən ruslar xəcalət çəkir.

Düzü, fransızca danışan azərbaycanlı görməmişəm, ona görə də deyə bilmərəm ki, bizimkilər "Paris" əvəzinə "Pağis", yaxud "mersi" yerinə "meğsi"ni necə deyə bilirlər, aksentləri hiss olunurmu, olunmurmu.

Keçən ayın bu günləri Stokholmda yaşayan keçmiş əməkdaşımız Rahib Kazımlıyla mühacirlərin işinə baxan idarədə idik, məmurlarla onun İsveç dilində söhbətinə qulaq asanda gördüm ki, o, bu dildə təxminən Mirşahinin ana dilimizdə danışdığı kimi danışır. Yəni o qədər sürətli və çox sözlər işlədərək.

Amma sonra gördüm ki, bu, bir az fərdi məsələdir, yaşadığı ölkənin dilini öyrənməyə ərinənlər də var. Bizdə belə xasiyyət də var, ehtiyacımız olmasa, işimiz aşmasa, heç nə öyrənmərik, amma öyrəndiyimiz dil və ya başqa bir şey bizə pul-para qazandıracaqsa, dərhal öyrənərik, özü də çox mükəmməl şəkildə.

Dostlar təndir çörəyinin bərəkətinə and içir ki, Çində yaşayıb-işləyən elə azərbaycanlılar var ki, dünyanın ən çətin dili olan xancada Sincan uyğurlarından da yaxşı danışırlar. Hətta biri varmış, dildən o qədər pərgarmış ki, onun sayəsində kəf gəlmədiyi çinli qalmayıbmış. Tutub dilini kəsməyiblərsə, hələ də oralardadır.

Ötən həftə Brüssel və Amsterdamda olarkən gördük ki, heç bu ölkələrdə də insanlar ingilis dilini tum kimi çırtlamırlar, adama öz dillərində cavab verməyi üstün tuturlar. Amma o da var ki, onlar ingilis dilini birifinq keçirəcək səviyyədə bilməsələr də, bir əcnəbini başa salıb metro turniketindən keçirə bilirlər.

Bu xüsusda bir məzəli olay da baş verdi. Mindiyimiz növbəti taksinin sürücüsü də mərakeşli çıxdı (Brüsseldə ümumilikdə on dəfə taksiyə mindiksə, doqquzunda sürücülər mərakeşliydi). Öndə oturan səfər yoldaşımız soruşdu: "Morokko?"(Yəni mərakeşlisən?) Sürücü cavab verdi: "Yes". Həmvətənimiz yeni sual verdi: "Muslim"? (Müsəlmansan?) Sürücü yenə "yes" dedi və həmvətənimiz tərtəmiz ingilis dilində ona "okey" deyərək bizə tərəf döndü: "İngiliscə xeyli bilirmişəm haa".

Əlbəttə, belə-belə başlayır, sonra genişlənir, böyüyür, təkmilləşir. Bu gün mərakeşli taksi sürücüsü ilə "yes-yes" deyərək anlaşırsan, sabah NATO-nun analitikindən ingiliscə müsahibə alırsan. Əsas qarşıya məqsəd qoymaq və öyrənməyə cəhd etməkdir.

Xülasə, səfərdə olarkən ingiliscəsi, yumşaq desək, zəif olan bəzi yoldaşlar özlərinə və bizə söz verdilər ki, ölkəyə çatan kimi xarici dil kursuna gedəcəklər və dili təmiz öyrənəcəklər. Burdan onlara səslənirəm: "Don't forqet your promise". (Bilmirəm düz yazdım, ya yox).

# Partiya sədri 1 yanvarın bayram edilməsinə qarşı çıxdı

**"Azərbaycanda hər yerdə yolka qururlar, 1 yanvarı Yeni il bayramı kimi böyük canfəşanlıqla qeyd edirlər. Əslində isə yanvarın 1-i şeytanın anadan olduğu gündür". Bu barədə "Yeni Müsavat"a açıqlamasında ADP sədri Sərdar Cəlaloğlu bildirib. S.Cəlaloğlu fikrini belə əsaslandırdı ki, satanistlərin təqvimində yanvarın 1-i onların müqəddəs günlərindən biridir:**

## Sərdar Cəlaloğlu: "1 yanvarın bayram kimi qeyd edilməsi şeytanın insanlıq üzərində qələbəsidir, həmin gün satanistlərin müqəddəs günüdür"

"İsa peyğəmbər yanvarın 1-də anadan olmayıb. Xristian dünyası İsa peyğəmbərin dünyaya gəlməsini Pasxa bayramı olaraq qeyd edir. Bu bayram isə bilirsiz ki, yanvarın 1-də keçirilmir. Azərbaycanda çox adam elə bilir ki, 1 yanvar İsa peyğəmbərin doğum günüdür və 1 yanvar ona görə bayram edilir. Satanistlərin ən böyük müvəffəqiyyətidir ki, dünya xalqlarının böyük hissəsini şeytanın anadan olduğu günü-1 yanvarı bayram eləməyə sövq edə biliblər. Bunu müxtəlif üsullarla dünyada qəbul elətdiriblər. 1 yanvarın bayram kimi qeyd edilməsi şeytanın insanlıq üzərində qələbəsidir".

**S.Cəlaloğlunun sözlərinə görə, bəziləri deyə bilər ki, 1 yanvar yeni ilin ilk günüdür, təqvimin dəyişməsidir ona görə bayram edilir. Əslində isə il Novruz bayramında-martın 21-də təhvil olunur və yeni il başlayır:** "Elm, astronomiya da sübut edir ki, il məhz bu zaman təzələnir. Astronomiya sübut edir ki, məhz martın 21-də gecə ilə gündüz bərabərləşir və il dəyişir. Yanvarın 1-də isə heç bir astronomik və təbiət hadisəsi baş vermir. Təqvimin yanvarın 1-dən başlanmasını insanlar müəyyənləşdirib. Dekabrın 31-dən yanvarın 1-nə keçən gecə heç bir astronomik dəyişiklik yoxdur. Gün öz-özlüyündə sabit olaraq qalır, heç bir təbiət oyanışı hadisəsi olmur. Qış da dekabrın 22-də daxil olur. Yəni



Sərdar Cəlaloğlu

### "Şeytanın kitabları sərbəst satılır və heç kəsin də vecinə deyil"

indi bu xalqın hay-küylə bayram etdiyi bayram qışın gəlişinin bayram edilməsidirsə, onda gərək dekabrın 22-ni bayram etsinlər. Yanvarın 1-nin bayram edilməsini heç bir şeylə izah etmək mümkün deyil".

**Həmsöhbətimiz müsəlmanların yolka bəzəməsinin də doğru olmadığını bildirdi:** "Əgər sən xristiansansa İsa peyğəmbərin anadan olan günü münasibətilə yolka bəzəyə bilərsən. Yolkanın simvolik mənası belədir ki, Məryəm İsa peyğəmbərə hamilə olarkən ac-susuz gedib bir quru ağacın altında oturur. Allah bu zaman buyurur ki, ağacı silkələ. Məryəm ağacı silkələyəndə ağacdan meyvələr tökülür, ağac yarpaqlayır və həmin ağaca Allah həmişə yaşıllıq verir. Məhz buna əsaslanan xristianlar yolkanı bəzəyir".

**Sərdar Cəlaloğlu şəxsən öz evində yolka qurulmadığını dedi:** "Sovet hökumətinin vaxtında uşaqlarım balaca idi, istəyirdilər ona görə də qururduq. Müstəqillik əldə etdikdən sonra Qərbdən müxtəlif ədəbiyyatlar daxil olmağa başladı və mən illərdir ki, mütailə edirəm. Araşdırdım və bəlli oldu ki, yanvarın 1-nin nə xristianlıqla, nə İslamla, nə də xalqların mövsüm günləri ilə heç bir əlaqəsi yoxdur. Bu günü satanistlər dünya xalqlarına bayram kimi sırıyıblar".

**ADP sədri onu da bildirdi ki, bu gün gedib Bakıda kitab mağazalarına baxsaq görəcəyik ki, satanistlərin saysız-hesabsız həddə kitabları satılır:** "O kitablardan birini alın və Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadəyə göstərin və soruşun ki, bu nə kitabdır. Əgər o desə ki, satanistlərin kitabıdır, mən adımı dəyişərəm. Bilmirlər axı desinlər. Bunlar heç bilmirlər ki, satanistlərin kitabı hansıdır. Çünki satanistlər hər şeyi açıq şəkildə yazmırlar. Müxtəlif ədəbiyyatlar adı altında satanizmi təbliğ eləyən kitablar satılır. Kitablar satanist inancına xidmət eləyən kitablardır, insanlar heç özləri də bilmədən onu oxuyurlar. Ona görə də İslamdan, dindən uzaqlaşırlar və dünyanın, insanın yaranışı ilə bağlı tamamilə yanlış təsəvvürlərə malik olurlar. QMİ bir nurçunun və ya vəhabinin kitabını qadağan edir, amma şeytanın kitabları sərbəst satılır və heç kəsin də vecinə deyil".

❑ Etibar SEYİDAĞA

# Evsiz qalan AXCP-nin sabiq funksioneri prezidentdən kömək istəyir

## Ağaşirin Tanrıverdioğlu 23 ildir kirayələrdə yaşadığını deyir; rəsmi qurum isə onun şəxsi zəmində evsiz qaldığını bildirir: "Onun məsələsinə gələcəkdə baxıla bilər..."

**AXCP-nin sabiq şöbə müdiri, Qubadlı köçkünü Ağaşirin Tanrıverdioğlu Baxşəliyev "Yeni Müsavat"dan kömək istəyib. Sumqayıt şəhəri, 5-ci mikrarayon, ev 35, mənzil 35-də qeydiyyatda olan şikayətçi 23 ildir kirayələrdə yaşamasına baxmayaraq, hələ də mənzillə təmin olunmayıb.**

AXCP-nin sabiq funksioneri indiyədək dəfələrlə aidiyyəti orqanların qəbulunda olduğunu bildirdi: "1993-cü il avqustun 31-dən məcburi köçkün olmuşuq. Özü də ən ağır həyatı yaşamışam. O gündən bu günə qədər dövlətdən təminat istəməmişik. Qubadlının işğal olunduğu 23 ildə kirayə yaşamışam. Dəfələrlə "Qaçqınkom" sədrinə və başqa müvafiq orqanlara "Azərbaycan saatı", başqa saytlar vasitəsilə müraciət etmişəm. Amma nəticəsi olmayıb. "Qaçqınkom"un rəhbərinə dəfələrlə məktub yazmışam ki, məni qəbul et, dərdimə şərik ol. Heç vaxt nəticəsi olmayıb. Təbii ki, hazırda dövlət hesabına məcburi



Ağaşirin Tanrıverdioğlu

köçkünlərə evlər tikilir, onlar evlə təmin olunurlar. Ev verilməli məcburi köçkünlərdən biri, bəlkə də birincisi mənəm ki, 23 ildir kirayələrdə qalmışam. Bakının yarısı mənə qonşu deyir. Ona görə ki, qalmadığım küçə, ev yoxdur. Artıq məndə ümidsizlik yaranıb".

**Şikayətçi ölkə başçısına müraciət edib:** "Cənab prezident, sizdən xahiş edirəm ki, konstitusiyanın sizə verdiyi səlahiyyətləri ali tutaraq, "Qaçqınkom"a evsiz qalan məcburi köçkünlərlə bağlı komissiya yaratması barədə tapşırıq verin. Ondan sonra yaşayış yerimlə tanış olsunlar. O zaman görəcəklər ki, mənə ev düşür ya yox. Bir daha "Qaçqınkom" sədri Əli Həsənova müraciət edirəm. Cənab sədr, artıq ahıl yaşa gəlib çatıram. 23 ildir evsiz-eşiksizəm. Bunlar bir tərəfə, həm də işsizəm. Nəinki ev kirayəsini, öz təminatımı belə qura bilmirəm. Ona görə də xahiş edirəm ki, növbəti bölgüdə mən evlə təmin olunum. Hara olur-olsun, bircə şəxsi mülküm olsun ki, kirayə pulu ödəməkdən azad olum. Qohumluğa, yerlibazlığa görə ev verilməsin. Artıq "Qaçqınkom" özü etiraf edir ki, elə məcburi köçkünlərə ev verilib, orada heç yaşayan yoxdur. Deməli, bu insanların ona ehtiyacları yoxdur. Onlar evləri hansısa vasitələrlə alıblar. Ehtiyacları olanlar da parklarda yaşayır. Bunlar mənə ev verməməklə istəyirlər ki, küçələrdə ölüm".

**Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Elçin Qədimov bildirdi ki, Ağaşirin Tanrıverdioğlu ailə münasibətlərinə görə evsiz qalıb:** "Sumqayıt İcra Hakimiyyəti ilə birlikdə məsələni araşdırdıq. Bizə verilən məlumata görə, həmin şəxs uzun müddət Sumqayıtda yaşayıb. Sonra o, həyat yoldaşından ayrılıb. Hazırda həmin mənzildə onun yoldaşı və qızı yaşayır. O deyir ki, Nərimanovda kirayədə yaşayır, bunun üçün ev istəyir. O sakini mənzillə təmin etmək imkanımız yoxdur. Komitənin balansında boş mənzil yoxdur. Amma gələcəkdə nəinki bu sakinin məsələsinə, eyni zamanda daha ağır şəraitdə yaşayanların, kirayədə qalanların mənzil məsələsində qanunvericilikdə nəzərdə tutulmuş şəkildə planlaşdırılmış formada baxılacaq. Onunla yanaşı kirayədə yaşayan sakinlərimiz çoxdur. Onların evlə təmin olunması indiki zamanda mümkün deyil. Onların işinə gələcəkdə baxıla bilər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 281 (6309) 17 dekabr 2015

**Rusiya kriminal aləminin "Ded Xasan"dan sonrakı "xaç atası" olmağa iddialı "Şakro Molodoy"un ("Zaxari Kalaşov) cangüdənləri güllələnib. Məlumata görə, Moskvada orta asiyalılara məxsus "Elements" restoranının qaşısında atışma baş verib və polisin ilkin məlumatına görə, atışma nəticəsində öldürülənlər "Şakro Molodoy"un mühafizəçiləri olub. Hadisənin təfərrüatlarını açıqlayan mənbə bildirib ki, Moskvada Roşdelski küçəsində onlarla adamın iştirakı ilə insident baş verib.**

# "Rövşən Lənkəranski"nin düşmənləri istəyinə çata bilmədi

## "Şakro Molodoy" "Ded Xasan"ın tax-tacına hələ ki yiyələnə bilmir; onun mühafizəçilərinin güllələnməsi kriminal aləmdə tezliklə daha böyük çaxnaşmanın yaşanacağını göstərir

Hadisədə 5 nəfər yaralanıb ki, onlardan da ikisi xəstəxanada keçinib. İnsidentə qarışan daha 4 nəfər isə yüngül xəsarət aldıqlarına görə evə buraxılıb. Atışmada iştirak edən digər tərəfin adamları qaçıb gizlənsələr də, çox keçmədən onlardan 3-nü yaxalamaq mümkün olub. Bunlar Pyort Şerçinsev, Eduard Budansev və Vladimir Kostriçenko olub. Qeyd edək ki, bundan əvvəl "Şakro" özü üçün mühafizəçi ordusu yaratdığı və ora 130 fiziki hazırlıqlı gənc cəlb etdiyi bildirilirdi. "Şakro Molodoy"un özünün təhlükəsizliyi ilə birbaşa 40 nəfər məşğul olur.

Rusiya kriminal aləminin ən nüfuzlu nümayəndələrindən biri olan "Şakro Molodoy" ləqəbli 61 yaşlı Zaxari Kalaşov ötən ilin oktyabr ayının 29-da İspaniya həbsxanasından azadlığa buraxılıb. Rusiya kriminal aləminin "xaç atası" sayılan Aslan Usoyanın ("Ded Xasan") 2013-cü ilin yanvar ayının 16-da öldürülməsindən sonra xüsusilə onun yaxın qohumları olan yezidi kürdlər klanın əvvəlki nüfuzunu qorumağa çalışsalar da, buna nail ola bilmədilər. Üstəlik, klan liderinin qətlindən ötən müddətdə onun qanı da yerdə qaldı. "Ded Xasan"ın öldürülməsində məşhur azərbaycanlı kriminal avtoritet "Rövşən Lənkəranski"nin (Rövşən Canıyev) də daxil olduğu müxalif qruplaşmanın əlinin olduğu iddia edilirdi. "Lənkəranski"nin düşmənləri "Şakro"nun azadlığa çıxmasına həm də bu səbəbdən sevinirdilər. Amma belə görünür ki, "Ded"in qətlini "Lənkəranski" klanına "yükləmək" mümkün olmadı və bu səbəbdən də gözlənilən qanlı hesablaşmalar da baş vermədi...

"Şakro Molodoy"un azadlığa çıxması ilə Rusiya kriminalında ciddi mövqe dəyişikliyi olacağı barədə hələ o zaman yayılmış xəbərlər o qədər də reallığı əks etdirmirdi. Çünki məlumatlar vardı ki, "Şakro Molodoy" İspaniya həbsxanasından çıxdıqdan sonra Rusiyaya şərtlə qayıdıb və hüquq-mühafizə orqanları ilə anlaşıb. "Şakro" təyyarənin trapından düşən kimi onu Rusiya Daxili İşlər Nazirliyinə aparmışdılar. "Şakro Molodoy"un Rusiya hüquq-mühafizə or-


Rövşən Lənkəranski

qanları ilə anlaşa biləcəyi barədə xəbərlər səbəbsiz deyil. 2000-ci il, iyunun 18-də Tiflisdəki erməni kökənli ABŞ vətəndaşı Aleksandr Kraynan oğurlanmışdı. Bir neçə gün sonra "Şakro" biznesmenin xanımına zəng edərək ərinin oğurlandığını və azadlığı üçün Kipr banklarının birindəki bank hesabını verərək ora 1,2 milyon dollar köçürülməsini istəmişdi. Pul deyilən hesaba köçürülsə də, biznesmenin hələ də öldü-qaldısı bilinmir. 2010-cu ildə bu cinayət işi ilə bağlı Gürcüstanda ona 18 il qiyabi hökm də çıxarılıb. Amma həm də Rusiya vətəndaşlığı olan "Şakro" İspaniya həbsxanasından buraxıldıqdan sonra Gürcüstana təhvil verilməyib. Onun Tiflis ətrafında olan nəhəng villası müsadirə olunub və polisin binası kimi fəaliyyət göstərir.

Bəzi mənbələr onun guya Bakıda doğulduğunu yazsa da, Zaxari Knyazeviç Kalaşov 1953-cü il, martın 20-də Tiflisdə anadan olub. 18 yaşı olanda o, SSRİ-nin cinayət aləminin avtoritetləri sırasına daxil ola bilib. Ona "qanuni oğru" adını 1971-ci ildə stalinizm həbsxanalarını da görmüş Avdo Mirzoyev verib. "Şakro Molodoy"un Azərbaycanda nəzarət etdiyi biznes isə həqiqətən olub. Rusiya mənbələri iddia edir ki, bir neçə il əvvəl Zaxari Kalaşovun Azərbaycan paytaxtında avtomobil biznesi *(söhbət o vaxt dəbdə olan Rusiya istehsalı olunan avtomobillərin satışından gedir)* olub.

"Oğru dünyası"nın "yalançı ad" alanlardan təmizlənməsinin ideya müəllifi olan "Şakro Molodoy" indiyədək bir neçə bu kimi qərarlar verib. Bu isə təbii ki, ondan narazıların sayını artırıb. "Şakro Molodoy"un xüsusilə gürcü "oğru"lar tərəfindən dəstəklənmədiyi və münasibətlərin hər gün kəskinləşdiyi vurğulanır. "Şakro Molodoy"un Moskvaya qayıtması "Ded Xasan"dan sonra xeyli güclənən slavyan qruplaşmalarını da narahat edib. Çünki "Ded Xasan" beynəlmiləl bir klan yaratmaqla bir neçə millətin, həmçinin azərbaycanlı nüfuzlu "qanuni oğru"larını ətrafına toplaya bilmişdi. "Şakro" isə belə görünür ki, varisi olmaq istədiyi "Ded"in taxı-tacına hələ ki yiyələnə bilmir, bu da kriminal aləmdə tezliklə daha böyük çaxnaşmanın yaşanacağını göstərir.

❑ **"Yeni Müsavat"**

# İş adamının aldatdığı fəhlə intihar edəcəyini deyir

## **Nəcəb Piriyev:** "Mahir Qarayev mənim adıma firma yaratdı, sonra mənə zəng etdilər ki, 35 min manat borcun var, bu adamlar başıma oyun açır"

**Şəki şəhər sakini Nəcəb Məmməd oğlu Piriyev intihar edəcəyini açıqlayıb. Bu haqda "Yeni Müsavat"a N.Piriyev özü məlumat verib. Redaksiyamıza Bakı şəhər prokuroru Əziz Seyidova ünvanladığı məktubun surətini təqdim edən N.Piriyev deyir ki, böyük bizneslə məşğul olan Mahir Qarayev onu aldadaraq borca salıb.**

Şəki rayonu, Çayqaraqoyunlu kəndində yaşayan N.Piriyev deyir ki, böyük ailəsi var. Borcla üzləşdiyindən ailəsi dağılmaq üzrədir: "Fəhləlik edərək ailəmi dolandırırdım. Özümə iş axtarırdım, bu məqsədlə 2013-cü ilin əvvəllərində Yevlax şəhərinə gəldim. Eşitdim ki, Yevlax şəhərində bağırsaq sexi açılıb, orada iş tapmaq olar. Həmin sexə getdim, orada Mahir adlı şəxslə görüşdüm. Ona iş axtardığımı dedim. Mahir həmin sexi işlədən şəxs idi. Həmin günü bir neçə saat gözlədim, onlar mənə müsbət cavab verdilər. İşləməyə başladım. Təxminən 3 ay işləyəndən sonra türk ustalar da ora gəldi. Həmin müddətdə Mahir mənə bildirdi ki, mənim adıma "Zülkət" MMC adında firma açmaq istəyir. Heç bir problem olmayacaq, maaşın artıq olacaq, gələcəkdə təqaüdün yaxşı olacaq. Mən də işimi itirməmək üçün razılıq verdim. Bu söhbətdən təxminən 2-3 gün sonra Mahir, mən və Razil Bakı şəhərinə gəldik. Mahir bizi bir əraziyə gətirib dedi ki, içəri keçin, sənədləşməni orada aparacaqlar. Mən həmin otağa yaxınlaşdım, Azər adlı oğlana şəxsiyyət vəsiqəmi və Mahirin mənə verdiyi 250 manat pulu verdim, ona bildirdim ki, MMC-nin adı "Zülkət" olacaq. Azər dedi ki, 2-3 gündən sonra gəlib sənədləri götürərsən. 3 gündən sonra biz gəlib sənədləri götürdük. Sonra işimizi eyni qaydada davam etdirdik. Təxminən bir ay sonra evimdə xəstə olduğu üçün 2 gün işə gəlmədim, həmin müddətdə eşitdim ki, orada işləyən türkləri polislər Bakı şəhərinə aparıblar. Sonra mənim adıma bildiriş gəldi və qeyd olunmuşdu ki, Miqrasiya Xidmətinə getməliyəm. Həmin yeri tanımadığım üçün Razildən xahiş etdim ki, məni ora aparsın, o da apardı. Şəxsiyyət vəsiqəmi orada işləyən şəxslərdən birinə təqdim etdim, onlar baxıb dedilər ki, adıma 35 min manat cərimə var, onu ödəməlisən. Razilə dedim ki, Mahiri çağır, bu məsələni aydınlaşdırsın. Mahir ora gəldi, ona dedim ki, cəriməni dərhal ödəyin, çeki də mənə verin".

**H.Piriyev həmin gün evinə gedib, 1 həftə sonra Miqrasiya Xidmətindən yenidən məktub alıb:** "Bütün ailəmi götürüb bir də Bakı şəhərinə gəldim, Bakıdakı qohumlarım da bizimlə birlikdə yığışıb müzakirə etdik. Mahiri görüşə çağırdıq. Mahir gələndən sonra ona bildirdik ki, kasıb adamam, mənim adımdan pul qazanmısan, cəriməni niyə ödəmirsən? Mahir mənə bildirdi ki, qardaşı Rafaelə deyəcək və Miqrasiya Xidmətinə tapşıracaq ki, bu məsələ həll olunsun. Bu günə qədər də həmin cəriməni ödəmir, ödəməkdən boyun qaçırır. Bu səbəbdən mən hüquq-mühafizə orqanlarına şikayət etmək qərarına gəlmişəm. Belə ki, Mahir və qardaşı Rəfael adımdan istifadə edib külli miqdarda pul qazanıb, hazırda mən kasıb adam Miqrasiya Xidməti qarşısında pis vəziyyətə qalmışam. Onlar əlbir olub mənə qarşı cinayət törədiblər. Onların qanunsuz hərəkətləri nəticəsində mənə külli miqdarda zərər dəyib. Həmin zərərin əziyyətini mən neçə illərdir çəkirəm. Kənd yerində ailəmi dolandırmaq üçün fermer təsərrüfatı ilə məşğul olmaq istəmişəm, bu barədə kredit təşkilatlarına pul götürmək üçün müraciət etməyimə baxmayaraq mənim adıma külli miqdarda cərimə olduğu üçün pul verməkdən imtina edirlər. Bununla əlaqədar borcun içindəyəm, hazırda ailəmi dolandıra bilmirəm".

Fəhlə hər iki qardaşın saxlanılaraq istintaqa cəlb edilmələrini xahiş edib.

❑ **E.HÜSEYNOV**

***P.S Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.***

# ABŞ-dan ədliyyə nazirinə müraciət



**ABŞ vətəndaşı Aynur Günişık ədliyyə naziri Fikrət Məmmədova müraciət edib. A.Günişık nazirdən hazırda Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılan qardaşı, Azərbaycan vətəndaşı Rauf Sultanovun durumu ilə bağlı məsələni şəxsi nəzarətinə götürməsini xahiş edir: "Qardaşım anadangəlmə epilepsiya xəstəliyindən əziyyət çəkir. 1-ci qrup ömürlük əlildir. Daim kənar şəxsin qulluğuna möhtacdır. Onu bu il dekabrın 3-də saxlanıldığı 3 saylı İstintaq Təcridxanasından müalicə müəssisəsinə köçürüblər. Dekabrın 14-də isə Raufu baş həkim yanına çağırıb və deyib ki, nevropatoloq qardaşımın istintaq təcridxanasında kamera şəraitində saxlanıla bilməsi haqda rəy yazıb. Bir daha qeyd edim ki, qardaşım 1-ci qrup əlildir, əməyə qadir deyil. Kənar şəxsin qulluğuna daim möhtacdır. Xroniki epilepsiya xəstəsidir. Qardaşımı istintaq təcridxanasına qaytarmaqla onun mümkün epilepsiya tutmaları zamanı səhhətinin ağırlaşmasına gətirib çıxara bilməsi ehtimalı çoxdur. Qanunun tələbinə görə, qardaşım kateqoriyasında olan məhkumlar müalicə məssisəsinin müvafiq şöbəsində stasionar şəraitdə saxlanılmalıdırlar. Cənab nazir, qardaşımı qanuna əməl etmədən istintaq təcridxanasına qaytarmaq istəyirlər. Sizdən xahiş edirəm ki, məsələni nəzarətdə saxlayın".**

Qeyd edək ki, R.Sultanov saxta ittihamla üz-üzə qalaraq həbs olunub.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 281 (6309) 17 dekabr 2015

# Bada gedən "Kənd təsərrüfatı ili"...

## Bu il ölkənin kənd təsərrüfatı məhsullarının ixracatı cəmi 1 faiz artıb; fermerlərin birbaşa xarici və daxili bazarlara çıxış imkanları məhdudlaşdırılıb

**Bir neçə gündən sonra geridə qoyacağımız 2015-ci il Azərbaycanda "Kənd təsərrüfatı ili" kimi yadda qaldı. Hələ ilin əvvəlində prezidenti İlham Əliyev 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında sərəncam imzaladı. Bunun ardınca kənd təsərrüfatının ayrı-ayrı sahələrinə milyonlarla manat vəsait ayrıldı. Bəs görəsən, bu il aqrar sahə hansı irəliləyişlərlə yadda qaldı? Ayrılan vəsaitlərin ünvana çatması və aqrar sektorun inkişafına faydalılığı təmin olundumu? Azərbaycanın kənd təsərrüfatı mallarının xarici bazarlar çıxışında hansı irəliləyiş oldu? Daxili bazarın yerli məhsullarla tam təminatı reallaşdımı?**

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərlinin sözlərinə görə, hökumət bu il də kənd təsərrüfatı sahəsində ciddi uğura imza ata bilmədi:** "Rəsmi statistik göstəricilər bu barədə kifayət qədər açıq mesaj verir ki, 2015-ci ildə də hökumət kənd təsərrüfatı sahəsində bir ciddi uğura imza ata bilmədi. Əslində bu il kənd təsərrüfatının inkişafı və ixracat potensialımızın artırılması üçün çox böyük fürsətlər yaranmışdı. Rusiya-Qərb qarşıdurmasından sonra Rusiya Avropanın bir çox kənd təsərrüfatı məhsullarına embarqo qoydu. Bu səbəbdən Azərbaycanın Rusiya bazarında dominant mövqe tutması üçün kifayət qədər münbit mövqe yaranmışdı. Bu da imkan verirdi ki, Rusiyaya daha çox məhsul ixrac edək".

**N.Cəfərli bildirdi ki, 2014-cü ilin göstəricilərinə görə, bu il Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracatı cəmi 1 faiz artıb:** "Bu onu göstərir ki, artım olmayıb, elə həmin səviyyədə qalıb. Bu il kifayət qədər ciddi fürsətlər olsa da, biz bu fürsətlərdən istifadə edə bilmədik. Rusiya Azərbaycan üçün ənənəvi bazar olsa da, öz üstünlüyümüzü artıra bilmədik. Bunun bir çox səbəbləri var. Ümumiyyətlə, kənd təsərrüfatının idarə olunmasında ciddi dəyişikliklərə ehtiyac var. Bir neçə il öncə subsidiyaların verilməsi ilə bağlı çox səhv bir strategiya quruldu. Dünyanın heç bir yerində demək olar ki, belə bir yanaşma yoxdur. Subsidiyalarla bağlı əsasən kənd təsərrüfatı məhsullarının son həcminə və məhsulun keyfiyyətinə görə stimullaşdırma proqramları qəbul olunur və həyata keçirilir. Azərbaycanda isə kənd təsərrüfatı ilə məşğul olanlara, dənli bitkilər, əsasən də buğda istehsal edənlərə hər hektara görə 80 manat, digər kənd təsərrüfatı məhsulları istehsal edənlərə isə hər hektara görə 40 manat subsidiya ayrılır. Bu isə fermerlərdə becərilən məhsulunun həcmi və keyfiyyəti ilə bağlı stimul formalaşdırmadı. Sadəcə, torpaq sahələrini ya kağız üzərində şişirdərək, ya da genişləndirərək daha çox subsidiya almaq, daha çox vəsait qazanmaq yolu seçildi. Bu da korrupsiyaya ciddi yol açdı. Yerlərdə icra hakimiyyəti nümayəndələri, Kənd Təsərrüfatı Nazirliyinin işçiləri fermerlərlə birgə kağız üzərində torpaq sahələrinin həcmini artıraraq, büdcədən daha çox vəsait almağa çalışdılar, stimullaşdırma proqramı əks nəticə verdi".

**Ekspert fermerlərin məhsullarını bazarlara çıxarmağa çətinlik çəkdiyini vurğulayaraq, xarici bazara çıxışın da məhdudlaşdırıldığını qeyd etdi:** "Digər problemlərdən biri də ondan ibarətdir ki, daha çox kənd təsərrüfatı məhsulları ixracı ilə məşğul olan insanlara ciddi maneə törədilir. Gömrük orqanları tərəfindən sərhəd-keçid məntəqələrində maneələr yaradılır.

Bölgələrdə məhsullar elə qapıda fermerdən alınır və çox ucuz qiymət təklif olunur. Fermerin özünün bazara çıxış imkanı olmadığından buna məcbur olur və daha çox məhsul istehsal etmək üçün stimul olmur. Fermerlərin birbaşa xarici və daxili bazarlara çıxış imkanları məhdudlaşdırılır. Bu problemlər üst-üstə yığılaraq daha iri problemlərə gətirib çıxartdı.Yəni 2015-ci il heç nə ilə fərqlənmədi. Ancaq bunun üçün kifayət qədər əsaslar var idi".

**Natiq Cəfərli qeyd etdi ki, bu sahədə əsasən stimullaşdırma metodu dəyişdirilməlidir və bütün dünyanın istifadə etdiyi təcrübədən istifadə etmək lazımdır:** "İkincisi, fermerlərin bazarlara çıxış imkanlarını asanlaşdırmaq lazımdır ki, fermerlər özləri birbaşa olaraq həm daxili, həm də xarici bazarlara çıxış imkanı əldə etsinlər. Üçüncüsü, fermerlər üçün uzunmüddətli və aşağı faizli kredit verilməsi imkanı yaradılmalıdır. Dünyanın hər yerində fermer təsərrüfatı ilə məşğul olanlar aşağı faizli kreditlərlə stimullaşdırılır ki, onlar da istehsalı artırsın. Çünki kənd təsərrüfatında elə sahələr var ki, onların gəlirliliyini illərlə gözləmək lazım gəlir. Bu sahələrdə irəliləyiş olsa, hər hansı dəyişiklik olsa, ölkədə kənd təsərrüfatının inkişafı üçün yetərincə potensial var.

**Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev isə "Yeni Müsavat"a açıqlamasında bu il aqrar sahənin yeni bir inkişaf mərhələsinə qədəm qoyduğunu bildirdi:** "Bu il ölkə başçısının imzaladığı bir çox fərman və sərəncamlar ölkədə aqrar islahatların yeni mərhələsinin başlanğıcını qoydu. Aqrar sahədə artıq yeni bir inkişaf mərhələsinə qədəm qoyuldu. 2015-ci ilin ölkədə "Kənd təsərrüfatı ili" elan edilməsi aqrar sektorun inkişafına yüksək mərhələdə diqqət ayrılmasının göstəricisidir. Artıq ilin başa çatmasına qısa müddət qalıb. Bu il də ölkədə bir çox aqrar islahatlar keçirilib, bu da məhsul istehsalının artmasına səbəb oldu.

Aqrar sahənin hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm addımlar atıldı. Nəticədə əgər ötən ilin yanvar-sentyabr ayları ərzində ölkə üzrə 3,2 milyard manatdan çox kənd təsərrüfatı məhsulu istehsal edilmişdisə, cari ilin müvafiq dövründə bu rəqəm 4,8 milyard manatdan artıq olub. Bu da onu göstərir ki, kənd təsərrüfatının hər iki istehsal sahəsi bu il kifayət qədər yüksək nəticələr əldə edib. Kənd təsərrüfatı elə bir sahədir ki, bura qoyulan əmək bir neçə il sonra öz bəhrəsini verir. Bu il görülən stimullaşdırıcı tədbirlərin nəticəsini bir 4-5 ildən sonra görəcəyik. Kənd təsərrüfatının texnika və gübrə ilə təminatı maksimum həddə çatdırılıb. Anbarlarda yetərincə gübrə var və gətirilən gübrələr laboratoriyalarda yoxlanılır".



**Qurum sözçüsünün bildirdiyinə görə, subsidiyaların verilməsi ilə bağlı problem də həllini tapıb:** "Bu sahədə şəffaflıq təmin olunub, bir çox yoxlamalar aparılıb və aşkarlanan faktlar hüquq-mühafizə orqanlarına verilib. İctimai nəzarəti gücləndirmək məqsədilə bizim nazirliyin saytında subsidiya alan fermerin adından, ünvanından tutmuş, torpaq sahəsinin ölçülərinə qədər hər bir məlumat öz əksini tapır. Hər bir vətəndaş oraya daxil olaraq bu məlumatları əldə edə bilər.

Subsidiyaların verilməsi ilə bağlı müxtəlif təkliflər var. Biz də kənd təsərrüfatına dövlət dəstəyinin forma və metodlarının təkmilləşdirilməsi üzərində işləyirik. Əvvəllər yanacaq -motor yağlarına görə taxıl əkininin stimullaşdırılmasına görə subsidiyalar verilirdisə, sənədləşmə işlərində problem yaşanırdısa, artıq subsidiyaların ildə bir dəfə verilməsinə başlanılıb, məbləğ artırılıb. Bu sahədə fermerin əziyyət çəkməməsi üçün sənədləşmə işinin sadələşməsi istiqamətində addımlar atılıb. Bizim bölgələrdə komissiyalarımız işləyir və fermerlərə yerindəcə sənədlər və subsidiyalar verilir. Bu il ölkə başçısının sərəncamı ilə təkrar əkin əkən fermerlərə də subsidiyaların ayrılmasına başlanıldı. Bu da fermeri təkrar əkinə həvəsləndirmək üçün bir stimul rolunu oynayacaq. Azərbaycan təbiəti təkrar əkin üçün imkan verir ki, taxıl əkilən sahədə ikinci dəfə qarğıdalı becərilsin".

**Murtuzəli Hacıyev qeyd etdi ki, bu il verilən ən mühüm qərarlardan biri də lizinqə verilən texnikalara 40 faiz güzəşt edilməsi oldu:** "Yəni hər hansı sahibkar texnika alırsa, dövlət onun 40 faizini qarşılayır. Ötən il bu güzəştlərin tətbiq edilməsi üçün dövlət büdcəsindən 44 milyon manat vəsait ayrılıb. Yanacaq və motor yağlarına görə verilən subsidiyalara 25 faiz güzəşt tətbiq edilir. Ən problemli sahələrdən biri də suvarma ilə bağlıdır. Hava şərtləri səbəbindən suvarma sistemi olmadan əkin sahələrinin becərilməsi mümkün deyil. Lizinq şərtləri suvarma texnologiyalarına da tətbiq edildiyi üçün bu sahədə də problemlər öz həllini tapır.

Bu il heyvandarlıq sahəsinin inkişafı da gündəmdə olub. Süni mayalanma yolu ilə doğulan hər buzova görə fermerə 100 manat subsidiya ayrılır. Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması barədə mühüm addımlar atılıb. Almaniya və Avstriyadan ən məhsuldar heyvanlar ölkəyə gətirilib ki, onlardan bir günə 32 litr süd almaq mümkündür. Bu da birdən -birə istehsalın 5 dəfə artması deməkdir".

**M. Hacıyev vurğuladı ki, bu il aqrar sahədə bir neçə yeniliyə imza atılıb:** "Bu il həmçinin kəndlərdə ailə-kəndli təsərrüfatlarının qurulması ilə bağlı addımlar atılıb. Bir neçə rayonda pilot layihələr həyata keçirilib. Bu il taxıl istehsalı da rekord həddə - 2,9 milyon ton olub. Tərəvəz istehsalında 1,7 milyon ton, bostan məhsullarında 481 min ton, meyvə-giləmeyvə istehsalında 533 min ton, üzüm istehsalında 111 min ton, yaşıl çay yarpağında 556 min ton, günəbaxanda 18 min ton, pambıq istehsalında 12 min ton artım olub.

Cari ilin "Arqolizinq" ASC tərəfindən Avropa istehsalı olan 6190 ton kənd təsərrüfatı texnikası, 398 kombayn, 2158 traktor, 27 ekskavator və digər texnika alınıb. Bütün bunlar 9 ayın nəticəsidir. Son 3 ayın göstəriciləri isə bir aydan sonra açıqlanacaq".

**Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 281 (6309) 17 dekabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Amerikalı həmsədr ölkəsini və səfiri pis vəziyyətdə qoyub

## Ekspertlərə görə, Qarabağ separatçısı ilə görüşən Ceyms Uorlik Bakı-Vaşinqton münasibətlərinə xələl gətirən addım atıb; rəsmi Bakı notasına cavab gözləyir; Amerika öz diplomatını əvəzləyəcəkmi?

**ABŞ-Azərbaycan münasibətlərindəki gərginliyin nisbətən səngidiyi bir ərəfədə ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlikin yanlış davranışları yenidən iki paytaxt arasında problemlər yaradıb. Dekabrın 9-da C.Uorlik Vaşinqtonda Ermənistanın ABŞ-dakı səfirliyi, erməni lobbi təşkilatları və Konqresdə Ermənistan üzrə İşçi Qrupun təşkil etdiyi "Artsaxın müstəqilliyinin ildönümü" başlıqlı qondarma tədbirə qatılıb.**

Üstəlik, o, tədbir çərçivəsində özünü Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "xarici işlər naziri" kimi təqdim edən Karen Mirzoyanla görüşüb ki, bu da Azərbaycan ictimaiyyətinin, həmçinin rəsmi Bakının etirazına səbəb olub.

İki gün əvvəl xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanı Xarici İşlər Nazirliyinə dəvət edərək ona Bakının etiraz notasını təqdim edib. Notada qeyd edilir ki, birbaşa Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan bu səpkidən olan tədbirlərdə ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədrinin iştirakı Minsk Qrupunun həmsədr institutunun mandatına tamamilə ziddir və onun neytrallığı və qərəzsizliyinə kölgə salır. Bu kimi addımın kütləvi miqyaslı dəhşətli etnik təmizləmə və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması ilə müşayiət olunan Azərbaycanın ərazi bütövlüyünə qarşı gücdən istifadə nəticəsində yaranmış vəziyyətin legitim olaraq tanınmaması barədə ABŞ-ın rəsmi siyasətinə zidd olduğu da diqqətə çatdırılır.

**Səfir Robert Sekuta Azərbaycanın narahatlıq və narazılığının ifadə olunduğu notanın Dövlət Departamentinə təqdim olunacağını bildirib. Davranışları ilə beynəlxalq hüquqa hörmətsizlik edən və ölkəsini çətin vəziyyətdə qoyan Uorlik isə vəziyyətdən çıxmağa çalışıb. "Dağlıq Qarabağdakı de-fakto hakimiyyətlə bağlı ABŞ-ın siyasəti dəyişməz olaraq qalır. Biz Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edirik" - deyə həmsədr bildirib. Uorlik deyib ki, münaqişənin hərtərəfli həllinin bir hissəsi olaraq işğal olunmuş torpaqlar qaytarılmalıdır:** "Bura Dağlıq Qarabağın statusunun müəyyənləşməsi də daxildir. Qeyd edilməlidir ki, ədalətli həll beynəlxalq hüquqa əsaslanmalıdır. Buraya Helsinki Yekun Aktı və güc tətbiq etməmə və ya güc tətbiqi ilə hədələməmə, ərazi bütövlüyü və öz müqəddəratını təyin etmə prinsipləri daxildir. Nə biz, nə də Ermənistan da daxil olmaqla, başqa bir ölkə Dağlıq Qarabağdakı rejimi tanımır. Bununla belə, Minsk Qrupunun həmsədrləri etdiyi kimi, Dağlıq Qarabağın bütün əhalisinin səsini dinləmək lazımdır", - deyə amerikalı həmsədr əlavə edib.

***

**Bu arada Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında görüşün Qarabağda, Avropada və ya Gürcüstanda keçirilməsi təklif olunduğu barədə xəbər yayılıb. "Dağlıq Qarabağın Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin üzvü, deputat Rövşən Rzayev deyib ki, icmaların görüşməsi istiqamətində işlər davam etdirilir:** "Amma hələ ki ciddi yenilik yoxdur. Ermənistanın siyasi rəhbərliyi həmişə olduğu kimi maneçilik törədir. Görüşün baş tutmasına ümid edirik. Biz onları konstruktiv mövqeyə dəvət etmək istiqamətində işimizi davam etdiririk".

Bundan əvvəl cəhdlər olsa da, erməni icması görüşdən imtina etmişdi. Qarabağ separatçıları tərəf kimi danışıqlar prosesində iştiraka iddialıdır deyə, icmalararası görüşdən yayınır. Ola bilər ki, amerikalı həmsədrin erməni separatçılara meydan tanımasını arxa plana keçirmək üçün kimlərsə boş və mənasız ideyanı ortaya atıb.

Lakin Azərbaycan tərəfi diplomatın sayğısız davranışına qarşı çox qəzəblidir. **Milli Məclis sədrinin müavini Bahar Muradova** da məsələyə münasibət bildirib. Vitse-spiker Uorlikin bu hərəkətini beynəlxalq hüquqa və Azərbaycan qanunlarına zidd addım kimi qiymətləndirib. Muradova bildirib ki, ABŞ-ın qondarma rejim "rəsmisinə" viza verməsi və umumiyyətlə, yüksək səviyyəli görüşlərin təşkil edilməsi, Ceyms Uorlikin sözügedən tədbirə qatılması və bu hərəkətini danışıqlar prosesinə töhfə verəcək addım kimi qiymətləndirməsi vasitəçilik missiyasına sığmır. "Uorlikin hərəkətinə görə bu ölkənin yüksək səviyyəli rəsmiləri öz mövqelərini ifadə etməlidir", - deyə, o əlavə edib. B. Muradova C. Uorlikin həmsədrlik postundan geri çağırılması məsələsinin mümkün ola biləcəyini söyləyib.

**Politoloq Arzu Nağıyev Nağıyev "Yeni Müsavat"a bildirdi ki, ümumiyyətlə, qondarma bir qurumun nümayəndəsini ABŞ-a dəvət demək və bunu insan haqları ilə bağlamaq, hər tərəfin nümayəndələri ilə görüşmək məsələsi bir diplomatik gediş idi:** "Yeni Ceyms Uorlik dəfələrlə hər iki tərəflə görüşlər keçirərək son vaxtlar ən dinamik həmsədrə çevrilmişdi. Buna da səbəb ABŞ -ın münaqişənin həllində təşəbbüsü əlinə almaq istəyi idi. Lakin fakt budur ki, Minsk Qrupu Rusiya, Fransa və ABŞ-dan ibarətdir. Rusiya son vaxtlar Ermənistanın strateji tərəfdarı olduğunu daha qabarıq şəkildə büruzə verir və münaqişənin olduğu kimi saxlanmasını arzulayır, Fransa demək olar ki, heç bir fəal addım atmır, bundan istifadə edən ABŞ öz mövqeyini ortaya qoymağa çalışır. Bu da məntiqi nəticə kimi Uorlikin nümayiş etdirdiyi mövqe ilə nəticələnir. Sonda isə münaqişənin həlli uzanır və ya atəşkəsin daha intensiv pozulmasına, itkilərin verilməsinə, gərginləşməsinə, hətta ağır texnikadan istifadələrə gətirib çıxarır. Yəni regionda bir sıra dövlətlərin apardığı nüfuz savaşı bu gün münaqişənin həllində özünü mənfi tərəfə göstərir".



Arzu Nağıyev



Elxan Şahinoğlu

**Türkiyənin Qarabağ məsələsinə həssas münasibətinin qarşılığında Moskvadan gələn "destruktiv" reaksiyasına gəldikdə, A.Nağıyev bunları vurğuladı:** "Təbii ki, Türkiyənin mövqeyi, o cümlədən Azərbaycanla strateji tərəfdaş və müttəfiq olması bu gün nə Rusiyanı, nə Fransanı, nə də ABŞ-ı qane edə bilməz. Rusiya hesab edir ki, Türkiyə NATO-nun üzvüdür və əvvəl-axır ABŞ və Fransa ilə razılıq əldə edəcək. Şimal qonşumuz öz bəyanatlarında hətta NATO qoşunlarının Dağlıq Qarabağ ərazisindən Rusiyaya həmlə edəcəyi kimi absurd bəyanatlar da verir. Belə bəyanatlar isə təbii ki, ABŞ-ı qane etmir. Yəni hər iki halda bizim əleyhimizə olan addımlar atılır".

**Ekspert Azərbaycanın xarici siyasət idarəsinin ABŞ-a notasını isə tam təqdir etdi:** "Bakının Uorliklə bağlı bəyanatı düzgün atılan addımdır və təqdirəlayiqdir. Yəni tərəfdaşlıq, dostluq öz qüvvəsində qalmaqla nüfuz davası məhz Qarabağ münaqişəsi üzərində qurulmamalıdır. Düşünürəm ki, Rusiyanın Türkiyə ilə bağlı bəyanatına da cavab verməyə dəyməz. Çünki burada əsas məqsəd Türkiyə ilə olan siyasi gərginliyin təzahürüdür. Türkiyə məhz bu münaqişəyə görə Ermənistanla sərhədləri açmır, Azərbaycanı yüksək beynəlxalq qurumlarda təmsil edir, münaqişə ilə bağlı bəyanatlar verir, təbii ki, bu da Rusiyanı qane etmir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə düşünür ki, Uorlik yenə lazımsız yerə vəziyyəti gərginləşdirib:** "Separatçı Dağlıq Qarabağ rejiminin "xarici işlər naziri" Karen Mirzoyan ABŞ-da səfərdədir. Uorlik Vaşinqtonda onunla görüşüb. Əlbəttə, həmsədrlər Dağlıq Qarabağa səfərləri çərçivəsində separatçı rejimin müxtəlif nümayəndələri ilə görüşür və fikir mübadiləsi aparırlar. Buna heç kim etiraz etmir. Ancaq separatçıların təmsilçisinin ABŞ-a səfəri və oradakı görüşləri, üstəgəl də amerikalı həmsədrin Dağlıq Qarabağdan kənarda onunla görüşü Azərbaycanın haqlı narazılığına səbəb olub. Bu, faktiki Uorlikin Qarabağ separatçılarının təmsilçisinin tanınması mənasına gəlir. Uorlik öz müdafiəsi üçün belə deyib ki, ABŞ-ın Dağlıq Qarabağdakı de-fakto hakimiyyəti ilə bağlı siyasəti dəyişməz olaraq qalır, Vaşinqton Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edir. O, Azərbaycanın könlünü almaq üçün bu sözləri də deyib. Həmçinin qeyd edib ki, münaqişənin hərtərəfli həllinin bir hissəsi olaraq işğal olunmuş torpaqlar qaytarılmalıdır. Ancaq bu fikrindən sonra Ermənistanı sakitləşdirəcək cümlə işlədir: "Həllə Dağlıq Qarabağın statusunun müəyyənləşməsi də daxildir. Dağlıq Qarabağın bütün əhalisinin səsini dinləmək lazımdır"".

**Politoloqun fikrincə, elə Ermənistanın istədiyi də budur:** "Qarşı tərəf deyir ki, Dağlıq Qarabağ ətrafındakı torpaqları o zaman azad edəcəyik ki, Azərbaycan referendumla bağlı müddəaya razılıq versin. Rəsmi Bakı referendumu müzakirə etməyə hazırdır. Ancaq Azərbaycanın iki şərti var. Birinci şərt odur ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar qeyd-şərtsiz azad edilməli, rəsmi İrəvan işğaldan şantaj vasitəsi kimi istifadədən əl çəkməlidir. İkinci şərt isə odur ki, torpaqlar işğaldan azad olunan kimi azərbaycanlılar öz doğma torpaqlarına qayıtmalıdırlar. Üstəgəl, Dağlıq Qarabağa aid olan Şuşa və ətraf kəndlərin də əhalisi geri qayıtmalıdır ki, onların istək və arzuları nəzərə alınsın. Bu iki şərt yerinə yetirilmədən Dağlıq Qarabağın statusunu müəyyənləşdirəcək referendum tarixinin müzakirəsi mümkün deyil. Bunu Uorlik də bilir. Təsadüfi deyil ki, ötən il və bu il Uorlik bir neçə dəfə "Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır" fikrini də səsləndirib. Bu açıqlamanı yüksək qiymətləndiririk. Ancaq bunu dedikdən sonra amerikalı diplomat Vaşinqtonda separatçıların liderləri ilə görüşməməli idi. Əgər o, separatçılarla Vaşinqtonda fikir mübadiləsinə belə ehtiyac duyursa, onda separatçıların lideri ilə yanaşı Vaşinqtonda Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri ilə də fikir mübadiləsi aparsın. Onda deyərdik ki, Uorlik Dağlıq Qarabağın hər iki icmasının fikir və arzularını nəzərə alır. Bu da olardı problemə balanslaşdırılmış münasibət. Bu olmadığından Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanı nazirliyə çağıraraq ona Bakının etiraz notasını təqdim edib".

**E.Şahinoğlu qeyd etdi ki, Ceyms Uorlik son hərəkəti ilə ölkəsinin və səfir Sekutanın əməyinin üstündən də xətt çəkir:** "Çünki bu il ərzində Azərbaycana səfər edən amerikalı rəsmilər əllərindən gələn hər şeyi etdilər ki, iki ölkə arasındakı münasibətlər əvvəlki müsbət məcrasına qayıtsın. Səfir Sekuta da bu istiqamətdə çox iş görür. Ancaq Uorlik bir səhv hərəkəti ilə həmkarlarının əməyini yerə vurur. Rəsmi Bakının notasından sonra Azərbaycanın Uorliklə birgə işləməsi çətin olacaq. Vaşinqton Uorliki Minsk Qrupu həmsədrliyində başqasıyla əvəz etməsə, köhnə kadrın bəyanatları Azərbaycanda ciddi qəbul olunmayacaq, ən başlıcası o inandırıcılığını itirəcək. NATO işğal altındakı torpaqlar məsələsində Azərbaycanın mövqeyini müdafiə edir. NATO Parlament Assambleyasında da qəbul olunan sənədlərdə Azərbaycan torpaqlarının işğaldan azad olunması vacibliyi vurğulanır. Buna rəğmən, NATO ATƏT-in Minsk Qrupunu əvəz etmək istəmir. Bu isə o deməkdir ki, NATO Dağlıq Qarabağ münaqişəsinin həllində bu və ya digər şəkildə iştirak etmək istəmir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# Yaşayış binasının dəmir fasadı qopur, insanlar təhlükədə...

**Zığ şossesində yerləşən yanan binanın yaxınlığındakı 1 nömrəli yaşayış binasının fasad üzlüyü qoparaq ətrafdakı sakinlərin həyatı üçün təhlükə mənbəyinə çevrilib. Yeni təmirdən çıxmış binanın fasadının alkopan üzlüyü havanın küləkli olması səbəbindən fasadı qoparaq ətrafa töküləb. Bu da həmin ərazidə park edilmiş iki avtomobilə ziyan vurub. Hazırda dəmir parçaları hissə-hissə oparaq oradan keçən sakinlərin üzərinə düşür. Bu isə onların həyatı üçün ciddi təhlükə yaradır.**

Sakinlərin şikayəti üzərinə musavat.com-un müxbiri həmin əraziyə baş çəkib və deyilənlərin şahidi olub.

1 nömrəli yaşayış binasının fasadı hər an burada yaşayan və ətrafdan keçən insanların faciəsinə səbəb ola bilər. Fasadın üzlüyünə vurulmuş iti uclu, kəsici xarakterli dəmirlər küləyin təsiri ilə qoparaq sürətli şəkildə yerə çırpılır. Bu zaman yaxınlıqdakı obyektlərin pəncərələrinə, damına, eləcə də avtomobillərə dəyərək ciddi ziyan vurur.

Sakinlərlə etdiyimiz söhbətdən məlum oldu ki, artıq 1 həftədir sözügedən vəziyyət davam edir: "Bir həftədir binanın qarşısından keçməyə qorxuruq. Hər dəfə ehtiyat edirik ki, fasaddan qopan iri dəmir parçaları üzərimizə uçar. Bilmirik ki, hansı tərəfə qaçıb canımızı qurtaraq".

Sakinlər deyir ki, binanın çıxışından mərkəzi yola çıxmaq üçün alternativ yol çox uzaqdır. Bu səbəbdən məcbur qalıb təhlükə altında keçməli olurlar. Təhlükənin fərqində olmayan azyaşlı uşaqlar isə daha böyük risk altındadırlar.

Lakin bir neçə gündür davam edən bu durum binanın fasadının təmirini aparan şirkətin rəhbərliyini heç narahat etməyib. Sakinlərin şikayətinə baxmayaraq, aidiyyəti qurumlardan heç biri təhlükənin aradan qaldırılması üçün tədbir görmür.

❑ **Məğrur SALMANOV**
**Foto müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

-----------------------------------------------

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

-----------------------------------------------

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# Vergidən yayınan müğənnilər həbs olunacaq



**Xəbərdarlıqlara məhəl qoymayan və vergidən yayınmağa davam edən şou-biznes nümayəndələri ciddi şəkildə cəzalandırılacaq. BAKU.WS-in məlumatına görə, bu barədə Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəis müavini, İqtisadi təhlil və proqnozlaşdırma idarəsinin rəisi Fərid Cəbrayıl bildirib.**

Onun sözlərinə görə, vergi orqanları dəfələrlə şou-biznes nümayəndələrini vergi uçotuna durmağa və vergi öhdəliklərinə əməl etməyə dəvət edib. Lakin heç bir nəticə əldə olunmayıb. Nazirlik rəsmisi bildirib ki, artıq ciddi tədbirlərin görülməsinə başlanacaq.

"Bu xəbərdarlıqların və vergi orqanlarının «yumşaq" davranışının limiti bitib. Bundan sonra vergidən yayınanlara qarşı ciddi və təxirəsalınmaz tədbirlər görüləcək. Onların əmlakı siyahıya alınacaq. Mülkiyyətində olan avtonəqliyyat vasitəsi üzərinə həbs qoyularaq cərimə meydançasına aparılması və məhkəmə qərarı ilə hərracda satılaraq əldə olunan vəsaitin vergi borclarına ödənilməsi təmin ediləcək. Vergiyə borcu olanların ölkədən çıxarılmasına müvəqqəti məhdudiyyət qoyulması, borcum məbləği 2 min manatdan çox olduqda, onlar barəsində cinayət işinin açılması və digər qanunla nəzərdə tutulan tədbirlər görüləcək", - deyə Fərid Cəbrayıl vurğulayıb.

Rəisin sözlərinə görə, bu məsələlərdə ictimai qınaq da çox vacibdir. Bundan sonra borclu şou-biznes nümayəndəsi, müğənni barədə Vergilər Nazirliyinin rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində mütəmadi olaraq məlumatlar veriləcək. Onların adları açıqlanacaq. Onlar barədə cinayət işinin açılması və ölkədən çıxmalarına qadağa qoyulması barədə informasiyalar öz əksini tapacaq.

Gələn həftədən vergi borcu olan şou-biznes nümayəndələrinin adları açıqlanacaq. Bundan sonra mərhələli şəkildə onlar barədə intensiv olaraq, xəbərlər yayılacaq. Cinayət işi açılacaq, lazım gələrsə, həbs olunacaq.

# Sulu qar, qar yağacaq, duman olacaq

## Yeni ildə Bakıya qar yağacaqmı?

**Artıq yeni ilə sayılı günlər qalıb. Yeni ilə rəng qatacaq amillərdən biri də xüsusən də uşaqların sevimlisi olan qardır. Bəs görəsən, bu ilin sonu paytaxt Bakıya qar yağacaqmı?**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova sualımıza cavab olaraq bunları deyib:

"Bu barədə yalnız Yeni ilə bir neçə gün qalmış məlumat verəcəyik. Dekabrın 16-17-nə olan proqnoza görə isə Bakı və Abşeron ərazisində digər və rayonlarda yağıntılı hava olacaq. Yalnız dağlıq ərazilərdə yağıntıların sulu qara keçəcəyi gözlənilir".

Onu da əlavə edək ki, ümumilikdə son 33 il ərzində Bakıda 31 dekabr və 1 yanvar günündə qar 2 dəfə yağıb. 2006-cı ildə gün ərzində, 2008-ci ildə isə dekabrın 31-dən 2009-cu ilin 1 yanvar tarixinə keçən gecə qar yağıb.

Digər illərdə isə həmin günlərdə Bakıda hava yağmursuz, bəzi illərdə isə yağışlı olub.

❑ **Xalidə GƏRAY**

### Elan

**Azərbaycan Dövlət İqtisad Universitetinin əmtəəşünaslıq fakültəsinin 3-cü kurs, 350-ci qrup tələbəsi Aşurova Məleykə Şahin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## TƏBRİK



*Rafiq bəyi 60 yaşının tamam olması münasibətilə ailəsi təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırlar. Bu təbrikə Rasim bəy də qoşulur.*

# "Gəncəbank" sədri vətəndaşın mənzilini qanunsuz olaraq satıb

**"Gəncəbank" ASC-nin sədri Pərvanə Novruzovanın Natalya Kərimovaya məxsus mənzili qanunsuz olaraq digər şəxsə satması təsdiqlənib. Gəncənin Kəpəz Rayon Məhkəməsinə müraciət edən Natalya Kərimova vərəsəliyin qəbul edilməsi faktının müəyyən edilməsi və evdən çıxarılmaya dair iddia ilə çıxış edib.**

N.Kərimova iddiasında göstərib ki, Belarus Respublikasının Mogilyov şəhərində anadan olsa da, Azərbaycanda yaşayıb, azərbaycanlı Mahir Kərimovla ailə həyatı qurduqdan sonra da Gəncədə yaşayıblar. Anası Yelena İosifovna Drobışevskaya sağ ikən Gəncə şəhəri, Kəpəz rayonu, F.Əliyev küçəsi, I döngə, bina 11, mənzil 1 ünvanında yerləşən mənzilin bir hissəsini rəsmi qaydada alaraq mənzilin həmin hissəsini öz adına rəsmiləşdirib. Anası dünyasını dəyişəndən sonra isə həmin mənzildə N.Kərimova yaşayıb. "Gəncəbank" ASC-nin müdiri Pərvanə Novruzovanın təqibləri nəticəsində Azərbaycanı tərk edib. 1 il əvvəl Azərbaycana qayıdandan sonra isə digər əmlakları kimi anasının adına olan mənzilin də P.Novruzova tərəfindən zorla ələ keçirildiyinin şahidi olub.

"Azərbaycan Respublikasında aparılan demokratik islahatlar nəticəsində əmin-amanlıq bərpa olunduğundan 2015-ci ildə Azərbaycan Respublikasına qayıtdım. Ölkəyə gəldikdən sonra anama məxsus mənzilə baş çəkdim. Evin anama məxsus hissəsini qonşuluqda yaşayan Gülarə Hidayət qızı İmamquliyevanın və onun ailəsinin qanunsuz olaraq zəbt etməsini görüb çıxmalarını tələb etdim. O isə öz növbəsində qətiyyətlə evdən çıxmayacaqlarını bildirərək məni oradan qovdu" - deyə N.Kərimova qeyd edib. Onun vəkili Ceyhun Yusifov isə deyib ki, hakim iddiada göstərilən xüsusatları araşdıraraq iddianı təmin edib: "İddianın təmini Natalya Kərimovanın əmlakının zəbt olunduğunu təsdiqləmiş oldu. "Gəncəbank" ASC rəhbərliyinin əməlləri ən ciddi şəkildə araşdırılmalıdır. Pərvanə Novruzovanın bankdakı vəzifəsindən sui-istifadəyə yol verməsi göz qabağıdadır. Təəssüf ki, hüquq-mühafizə orqanları bu yöndə müraciətlərimizi araşdırmaqda həvəsli deyillər".

❑ **E.MƏMMƏDƏLİYEV**




# "Nar" yeni rominq kampaniyasına start verdi

## Səfərdə olan abunəçilər 50%-dək rominq endirimi qazanacaqlar




**Dekabr ayının 15-də "Nar" mobil operatoru öz abunəçiləri üçün rominq tariflərinə endirim kampaniyasına start verdi. Kampaniya çərçivəsində 1-ci zonaya aid ölkələrdə olan "Nar" istifadəçiləri internetdən 50% endirimlə, 2-ci zonaya daxil olan ölkələrdəki abunəçilər isə 40% endirimlə yararlana biləcəklər. Bundan başqa, hər iki zonaya daxil olan ölkələrdəki "Nar" istifadəçiləri Azərbaycana zəng edərkən 10% endirim fürsətindən də faydalanacaqlar.**

15 yanvar 2016-cı il tarixədək davam edəcək. Biraylıq kampaniya bütün abunəçiləri əhatə edəcək. Rominqdə olarkən, 50%-dək internet və 10% zəng endirimi fürsətləri qış səfərinə çıxmış "Nar" istifadəçilərinə öz səyahət təəssüratlarını bölüşmək üçün əlavə imkanlar yaradacaq.

Rominq zonaları və tariflər haqqında ətrafl məlumatı buradan öyrənə bilərsiniz: www.nar.az

YENİ MÜSAVAT
N 281 (6309) 17 dekabr 2015

# Yeni il süfrəsi azı 60, ən çoxu isə 1000 manata başa gələcək

## İqtisadçı ekspert: "Qiymət artımı təbii prosesdir…"

**Yeni təqvim ilinin gəlişinə sayılı günlər qalıb. Bayram yaxınlaşdıqca insanlarda yüksək əhval-ruhiyyə ilə yanaşı, bir sıra qayğılar da yaranıb. Əsas qayğılardan biri də bahalaşma ərəfəsində normal Yeni il süfrəsi açmaqdır. Adi günlərdən fərqli olaraq bayram günündə açılan süfrədə müəyyən qədər çeşid zənginliyi olmalıdır ki, bu da bir çox ailələrin büdcəsinə uyğun gəlmir.**







Ortabab bir Yeni il süfrəsi açmağın neçəyə başa gələcəyini öyrənmək üçün market və bazarlara üz tutduq. Bir çox alıcılar əllərində siyahı onlara lazım olan ərzaqları indidən alırdılarsa, çoxu, sadəcə, baxmaqla və qiymətin baha olduğuna etiraz etməklə kifayətlənirdi. Apardığımız müşahidə alıcılıq qabiliyyətinin o qədər də yüksək olmadığını və insanların əvvəlki illərlə müqayisədə yüksək bayram əhval-ruhiyyəsində olmadığını deməyə əsas verirdi ki, bu da bilavasitə "əl yandıran" qiymətlərlə bağlıdır.

Qiymətlərə gəlincə isə düyülərin qiyməti növündən asılı olaraq 1 manat 50 qəpik - 6 manat arası, yaşıl noxud çəkisindən və növündən asılı olaraq 90 qəpik - 4 manat arası, mayonezlər 1 manat 20 qəpik - 3 manat arası, duzlu xiyar 1 manat 80 qəpik - 4 manat arası, yumurta 13-15 qəpik arası, toyuq 3-5 manat arası, toyuğun ayrıca satılan hissələri 2-4 manat arası, pomidor 1 manat 60 qəpik - 2 manat 50 qəpik arası, xiyar 2 manat 50 qəpik, kartof 80 qəpik- 1 manat 30 qəpik arası, soğan 60-80 qəpik, göyərti 4 dənəsi 1 manat (bəzi yerlərdə 5 dənəsini də 1 manata almaq olar), alma 1-4 manat arası, nar 1-2 manat arası, banan 2 manat 50 qəpik, xurma 80 qəpik, qoz ləpəsi 7-18 manat arası, fındıq ləpəsi 8-15 manat arası, badam 16 manat, şabalıd 5-10 manat, qaysı 4-8 manat arasında satılırdı.

Buradan da göründüyü kimi, az gəlirli 4-5 nəfərlik bir ailənin - bir toyuq, düyü plovu, salat, içki, şirniyyatdan ibarət süfrəsi ortalama hesabla ən azı 50-60 manata başa gələcək. Təbii ki, bunu da zəif süfrə adlandırmaq olar ki, hazırkı vəziyyətdə əhalinin əksəriyyətinin bayramı elə nisbətən zəif süfrə ilə qarşılayacaqları güman edilir. Təəssüf ki, artıq bayram süfrələrində də təbəqələşmə gedir. Kasıbsayağı süfrə, ortabab və zənginlərin süfrəsi. Fərqlər isə gözlə görünəcək və insanı təəccübləndirəcək dərəcədədir. Yuxarıda kasıbsayağı süfrəyə lazım olan ərzaqları və bu süfrəni açmaq üçün təxminən nə qədər vəsait lazım olduğunu qeyd etdik. Ortabab və zəngin süfrəsi açmaq neçəyə başa gəldiyini öyrənmək üçün təxmini hesablama apardıq.

Apardığımız müşahidə və qiymətlər ortabab süfrə açmaq sizin ən azı 200-300 manatınızı apara bilər ki, bu da maaşınızın yarısı, bəlkə də hamısı deməkdir. Bu cür süfrədə əsasən plov və dolma olur ki, bunların da hazırlanması indiki qiymətlərlə təxminən 30-40 manata başa gəlir. Tort və şirniyyat 30-100 manat, meyvə 30-50 manat, çərəz 40 manata başa gəlir. Hələ digər ərzaqları demirik.

Zənginlər üçün süfrədə isə əsas elementlərdən biri xüsusi hazırlanmış salatlar və illərin şərablarıdır ki, əsas pulu da məhz bu iki qida aparır. 4-5 nəfərlik zəngin bayram süfrəsinə təxmini bunlar gedir: plov 50-60 manat, 2 növ isti yemək 80-100 manat, balıq 30-70 manat, kabablar 100 manat, içkilər 300 - 1000 manat, meyvələr 100 manat, tort və şirniyyat 50-100 manat, çərəz 60-80 manat.

Ümumiyyətlə, bazar və marketlərdə apardığımız müşahidələr bayrama qədər qiymətlərin daha da qalxacağını deməyə əsas verir. Bunu satıcıların özləri də təsdiqləyirdilər. Onlar tələbat çox olduğundan qiymətlərin nisbətən artacağını deyirdilər. Alıcılar isə bayram üçün lazım olan ərzaqların bəzilərini indi alsalar da, əksəriyyət bayram yarmarkalarının açılmasını gözlədiyini və qiymətlərin orada nisbətən ucuz olacağına ümidləndiklərini söyləyirdilər.

Onu da qeyd edək ki, artıq bir çox iri marketlər yeni il hədiyyələri - "birini al-ikincisini yarı qiymətə və ya hədiyyə olaraq al" tipli kampaniyalara başlayıb. Bir çox alıcılar da bu kampaniyaya qoşulan ərzaqlardan alırdılar.

**Bayram üçün lazım olan zəruri ərzaq məhsullarının bahalaşma səbəbinə gəlincə isə iqtisadçı ekspert Rəşad Həsənov bunun təbii bir proses olduğunu dedi:** "Bazar iqtisadiyyatının mövcud olduğu bir yerdə süni qiymət artımından danışmaq doğru olmaz. Əgər süni qiymət artımına yol açan səbəblər varsa, hökumətin əsas vəzifəsi də bu səbəblərin aradan qaldırılmasını təmin etmək olmalıdır. Yəni xüsusilə də inhisarçılıqla bağlı məsələlərə bu istiqamətdə diqqət yetirilməlidir. Bütövlükdə qiymətlərin artımı təbii bir prosesdir. Xüsusilə bayram dövründə tələbatın yüksəlməsi qiymətlərin artırılmasını stimullaşdıran əsas səbəb olur. Xüsusilə də bir çox məhsullar var ki, onların satışı bayram dövründə daha prioritet təşkil edir ki, bu da təbii ki, sahibkarlar tərəfindən qiymətləndirilir. Onlar bu dövr ərzində öz gəlirlərini artırmaq istiqamətində səylərini artırırlar. Amma düşünmürəm ki, 2015-ci ilin sonunda əhalinin istehlak qabiliyyəti əvvəlki dövrlərlə oxşar olsun. Bu isə ona gətirib çıxaracaq ki, sahibkarlar və işbazlar tərəfindən gözlənilən tələbat artımı baş verməyəcək. Düşünürəm ki, bu bir çox hallarda həmin şirkətlərin, sahibkarların nəzərdə tutduğu gəliri əldə etməsində problem yaradacaq. Düşünürəm ki, vətəndaşlar bu dövrdə daha qənaətcil davranacaqlar. Xüsusilə də böyük ehtimalla diqqət və tələbat yarmarkalarda daha da yüksələcək. Burada qiymətlər digər yerlərlə müqayisədə daha ucuz oldu. Bunda əlavə, insanlar artıq bazar iqtisadiyyatının şərtlərinə uyğunlaşmağa cəhd göstərməlidir. Böyük supermarketlər şəbəkələrində kampaniyalar həyata keçirilir. Bayram ərəfəsində bu cür kampaniyaların artacağı gözlənilir. Bu kampaniyalar zamanı yaradılan imkanlardan yararlanmaq ailə büdcəsinin daha qənaətcil xərclənməsinə gətirə bilər".

❑ **Günel MANAFLI**

# "Toy edən yoxdur"

## Müğənnilər toyların olmamasından gileylənir…

**Artıq Məhərrəmlik bitib, Səfər ayı da yekunlaşıb. Bu aylar İslam aləmində matəm hesab olunduğundan 60 gün ərzində heç bir şadlıq mərasimləri keçirilmir. Hətta paytaxt Bakıda bəzi şadlıq sarayları bu günlər ərzində öz fəaliyyətlərini dondurur. Beləliklə də şou-biznes nümayəndələri, xüsusən də müğənnilər bu aylarda qazancsız qalır. Matəm günləri bitdikdən sonra isə müğənnilər üçün "toy sezonu" başlayır. Görəsən, müğənnilərin toy hazırlıqları nə yerdədir? Toy qiymətlərində artım olacaqmı?**



İzzət Bağırov



Aşıq Zülfiyyə



Elza Seyidcahan

Bu suallarla bir neçə müğənniyə müraciət etdik.

**Əməkdar artist, müğənni İzzət Bağırov** matəm günlərinin bitməsinə baxmayaraq "toy sezonu"nun başlamadığından gileyləndi: "Demək olar ki, Məhərrəmlik ayı hələ də davam edir. Toy ümumiyyətlə yoxdur. Ya tamamilə evlənən yoxdur, ya da bunun başqa səbəbi var, bilmirəm. Məhərrəmlik artıq bir neçə gündür ki, bitib, lakin hələ ki toylara dəvət almamışam və qarşıda da hələ ki toy yoxdur. Başqalarını deyə bilmərəm, amma məndə vəziyyət belədir".

**Müğənni hər zaman aktiv yaradıcılıq fəaliyyətində olduğunu da qeyd edib:** "Tez-tez verilişlərə dəvət alıram. Hazırda bütün televiziyalarda yeni il çəkilişləri gedir. Sağ olsunlar, bütün kanallar məni bu çəkilişlərə dəvət edib.

Hər zaman aktiv yaradıcılıq fəaliyyətindəyəm. Bu il yeni albomum işıq üzü görüb, 5 yeni klipim çəkildi, möhtəşəm konsertim oldu".

**Aşıq Zülfiyyə toy qiymətlərinə artım olmayacağını deyib:** "Çünki camaatın vəziyyəti çox pisdir. Onsuz da toylar zəifləyib. Belə başa düşürəm ki, bu ya maddiyyatla, yaxud da qışla bağlıdır".

**Aşıq Zülfiyyə bir neçə ay bundan əvvəl dünyaya gələn nəvəsi ilə əlaqədar yaradıcılıqdan bir qədər uzaq düşdüyünü deyib:** "Başım nəvəmə qarışmışdı. Lakin bundan sonra yenidən yaradıcılığıma başlayacam"

**Manaf Ağayev də toy qiymətlərində artım olmayacağını deyib:** "Biz toylara həmişə camaatı qane edəcək münasib qiymətlərə getmişik, konkret qiymət qoymuruq. Hazırda yeni mahnılar üzərində işləyirəm. Onların bəziləri artıq işıq üzü görüb, bəzilərinin isə üzərində işləyirik".

**Cabbar Musayev toyların başlanmasını gözlədiyini bildirib:** "Toy qiymətlərində heç bir artım olmayacaq. Xalqın hazırkı durumunu başa düşən insanlar həddindən artıq azdır. Ona görə də çalışacayıq ki, xalqın cibinə uyğun toylara gedək. Bir sıra mahnılarımız var ki, onları aranjimana vermişik. Bilirsiz ki, aranjimanı da havayı etmirlər. Ona görə də toyların başlanmasını gözləyirik ki, ordan qazandığımız pulla mahnılarımızı işləyib, ortaya çıxaraq".

Əməkdar artist Nüşabə Ələsgərli isə anasının hüznü ilə əlaqədar şadlıq mərasimlərinə qatılmadığını bildirib.

Onu da qeyd edək ki, matəm günləri bitər-bitməz bir çox müğənnilər öz yeni mahnılarını təqdim etdilər. O cümlədən xalq artisti Aygün Kazımovanın "Gecə yarı" mahnısı işıq üzü görüb. Yeni mahnının sözləri Azər Şirinə, musiqisi isə Tərlan Məmmədhüseynova məxsusdur.

Xalq artisti Gülyaz Məmmədova da "Ağam Süleyman" adlı yeni ifasını sevənlərinin ixtiyarına verib.

Niyam Salami isə sözləri Arzu Hidayətqızına, musiqisi bəstəkar Nailə Mirməmmədliyə məxsus "Neftçilər" adlı mahnısını təqdim edib. Mahnıda Vasif Məhərrəmli, Mətanət Əsədova, Gülay Zeynallının da ifası yer alıb.

Müğənni Elçin Cəfərov "Dağılsın dünya" adlı yeni klipini təqdim edib. Klipdə aktyorlar Asya Atakişiyeva, Bəhruz Vaqifoğlu, Azər İlhamoğlu rol alıb.

Əməkdar artist Elza Seyidcahan isə bugünlərdə "Yeni Müsavat" verdiyi açıqlamasına bildirmişdi ki, tələbəsi ilə birgə qardaş ölkədə keçiriləcək "Türkvizyon" mahnı yarışmasında iştirak etmək üçün İstanbula yola düşüb.

❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 281 (6309) 17 dekabr 2015*




## Facebook-un bu yeniliyi sevilməyəcək

**Facebook daha bir yeniliyə imza atmağa hazırlaşır. Bir azdan heç kim saxta adlarla sosial şəbəkədə qeydiyyatdan keçə bilməyəcək. Təxəllüslərdən yalnız müstəsna hallarda istifadə etməyə icazə veriləcək.**

Daha öncə bir neçə dəfə şirkətə saxta adlara qadağa qoyulması ilə bağlı müraciətlər edilmişdi. Görünür, facebook rəhbərliyi gələn şikayətlərdən nəticə çıxarıb. Şirkət çərşənbə günündən öz yeni sistemini yoxlamadan keçirməyə başlayır. Yeni sistemə görə, istifadəçilər yalnız xüsusi hallar olduqda təxəllüslərdən istifadə edərək sosial şəbəkəyə daxil ola biləcəklər. Facebookun "əsl ad" siyasəti ağır vəziyyətə düşən, məişət zorakılığına, təqiblərə məruz qalan, cəmiyyətdə təhqir edilən insanlara kömək niyyəti ilə tətbiq edilir.

Lakin hələlik adların doğruluğunun hansı yolla müəyyən ediləcəyi ilə bağlı məlumat verilməyib. Kampaniya əmindir ki, öz əsl adını gizlətmək üçün istifadəçilərin heç bir xüsusi səbəbi yoxdur. Öz adlarından istifadə edən insanların sözü saxta adlarla daxil olan istifadəçilərin sözündən daha çox keçərli olur. Məlumat üçün qeyd edək ki, facebookun idarəetmə heyəti saxta profil istifadə etdiyi üçün Almaniya vətəndaşının profilini bağlayaraq, onun razılığı olmadan əsl adı ilə göstərib. Facebook öz siyasətində etdiyi son dəyişikliklərdən biri də profil fotoları yerinə videoların tətbiqi ilə bağlıdır.

# 15 gün enerji saxlayan telefon

**Çinin ağıllı telefon istehsalçısı olan "Oukitel" uzun müddətdir hazırladığı, enerjisi 15 gün davam edən "K10000" model telefonu satışa çıxarmağa başlayır. "İpone 6S"in təxminən 10 qatı qədər ömrü olan batareya 3,5 saata enerji yığır. Gücünün nə qədər olduğu bəlli olmayan telefonun yaddaşı 16GB-dır. 2016-cı ilin sonunda satışa çıxması gözlənilən telefonun hazırda sifariş qiyməti 240 dollardır.**




# Çayın zərərləri də var

**Alışdığımız çay orqanizmə xeyirdir. Amma hamıya, hər zaman və istədiyi miqdarda yox. Çay həzm prosesinə kömək edir. Amma siz mədə və onikibarmaq bağırsağın xorasından, eləcə də mədə turşuluğunun yüksək olmasından əziyyət çəkirsinizsə, çay içməyi azaldın. Sağlam mədədəki fosfor turşusu birləşmələri mədə turşusunun sekresiyasını aşağı salır. Yadda saxlayın ki, çayın bir komponenti teofilindir. Teofilin isə bu birləşmənin funksiyasını azalda bilər, nəticədə mədə turşusu xeyli artar. Bu isə öz növbəsində xoranın sağalmasına mane olur. Buna görə də çayın sayını azaldın, tünd çay içməyi isə birdəfəlik tərgidin. Əgər sizə ateroskleroz və hipertiniya xəstəliyi diaqnozu qoyulubsa, kəskinləşmə dövründə qırmızı və tünd dəmlənmiş çay içməyin. Belə çay mərkəzi sinir sisteminə qıcıqlandırıcı təsir göstərir. Baş-beyin qabığı bu vəziyyətə düşəndə qan damarları daralır. Bu isə beyində trombun yaranmasına səbəb ola bilər. Yatmağa az qalmış içilən tünd çay mərkəzi sinir sistemi və baş beyini oynaqlıq vəziyyətinə gətirir, nəbz tezləşir, qanın hərəkəti sürətlənir və yuxuya getmək mümkün olmur.**





## Təmiz hava pulla satılır

**Havanın çirkliliyinə görə ötən həftə Çinin paytaxtı Pekində fövqəladə hal elan edilmişdi. Ölkə mediasında yayılan məlumatlara görə, baş vermiş hadisədən sonra bir restoran sahibi təmiz havanı pulla satmağa başlayıb. Ölkənin Ciangsu əyalətində olan restoranın sahibi gələn müştərilərdən əlavə olaraq 1 yuan təmiz hava pulu alıb. Restoranda təmiz havanın pulla satıldığından xəbər tutan polislər restoranın sahibini həbs ediblər.**

Çində həmçinin Kanadadan gətirdiyi havanı pulla satan bir biznesmen şüşəyə doldurduğu havanı 400 yuana satır.




**QOÇ** - Yeni əlaqə və sövdələşmələr üçün normal gündür. Əlavə işlərə, xüsusən də əyləncələrə meyl etməyin. Ən azı ona görə ki, iştirakçısı olduğunuz hər bir müzakirədə vəziyyət xeyrinizə olacaq.

**BUĞA** - Sizin üçün həftənin ən gərgin iş günüdür. Bu səbəbdən də səbrli və məsuliyyətli olmağınız vacibdir. Yorulsanız, axşama yaxın qonaq gedin. Dostlarınızla ünsiyyətdə diqqətli olun.

**ƏKİZLƏR** - Bütün vaxtınızı ailə-sevgi münasibətlərinin yaxşılaşmasına yönəldin. Qarşı tərəfə güzəştə getməyi bacarsanız, sizə qarşı rəğbət daha da artacaq. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Qarşılıqlı münasibətlərdə ümumi vəziyyət qənaətbəxş olsa da, işlə bağlı müəyyən xoşagəlməzliklər də istisna olunmur. Qərar çıxlararkən mövcud reallığı mütləq nəzərə alın.

**ŞİR** - Hansısa uğura yiyələnmək fikrinə düşməyin. Yaxşı olar ki, başınızı aşağı salıb gündəlik qayğılarınızla məşğul olasınız. İqlimin dəyişkənliyi səhhətinizə zərər yetirə bilər.

**QIZ** - Təxminən saat 15-ə qədər gərgin məqamlar yaşaya bilərsiniz. Göstərilən ərəfədə kiminsə işinə müdaxilə etməyin. Sonrakı saatlarda sevindirici xəbərlərin şahidi olacaqsınız.

**TƏRƏZİ** - ."Üçüncü artıqdır" prinsipini qulağınızda sırğa edin. Çünki istənilən məsələdə yalnız ikitərəfli mövqe nümayiş etdirməklə uğur qazana bilərsiniz. Daxili orqanlarınıza fikir verin.

**ƏQRƏB** - Dekabr ayının bu təqvimi daha çox yeni əlaqələrlə yadda qalacaq. Qəribə də olsa, ulduzlar məsləhət görür ki, bu gün birinci başlamayasınız. Bir sözlə, risk etməyə dəyməz.

**OXATAN** - Sədaqətinə şübhə ilə yanaşdığınız adamlarla ciddi işbirliyi yaratmağa çalışmayın. Əks təqdirdə əliniz boşda qalacaq. Əməkdaşlıq zəminində ehtiyatlılıq tədbirlərindən yararlanın.

**OĞLAQ** - Qarşınızda duran bu maraqlı təqvimdə bütün gücünüzü münasibətlərin tənzimlənməsinə yönəldin. Böyüklük göstərin, təmkinli olun. Bunu bacardığınız təqdirdə günün ümumi mənzərəsindən razı qalacaqsınız.

**SUTÖKƏN** - Dekabr ayının ən uğurlu günlərindən birini yaşayacaqsınız. Odur ki, özünüzdə təmkin tapıb emosiyalara uymayın. Saat 13-dən sonra fəaliyyətinizdə irəliləyişlər olmalıdır.

**BALIQLAR** - Baxmayaraq ki Ay bürcünüzdə qərar tutub, ciddi perspektivlər haqqında düşünməyə dəyər. Yaxın gələcəyiniz hazırkı seçiminizdən birbaşa asılıdır. Bəxtinizdə pul da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yumşaq yataq ağrıları artırır



Doğru yataq və yastıq seçimi bel-boyun sağlığı üçün olduqca önəmlidir. Mütəxəssislər çox yumşaq olan yataq və yastıqların ağrıları artırdığını deyirlər. Ağrılar daha çox yanlış yastıq seçimindən qaynaqlanır. Bel və boyun ağrıları çox tez-tez rastlaşdığımız xəstəliklərin siyahısında ilk sıralardadır. Xüsusilə də kompüterdən istifadə artdığı üçün bu ağrılar daha da çoxalır. Bel-boyun ağrılarını ağır yük qaldırmaq, yanlış hərəkətlər etmək, kökəlmək, fiziki və zehni yüklər də artırır.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300